


# MÜNAQİŞƏ JURNALİSTİKASI:

# AZƏRBAYCAN JURNALİSTLƏRİ ÜÇÜN BƏLƏDÇİ KİTAB

PİTER DÜ TOİ
Cənubi Afrika Rods Universitetinin Jurnalistika və media tədqiqatları məktəbinin elmi işçisi

SEYMUR KAZIMOV
Azərbaycanda müstəqil jurnalist, tədqiqatçı və münaqişələrin işıqlandırılması üzrə ekspert

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Müəlliflər:

**PİTER DÜ TOİ**

*Cənubi Afrika Rods Universitetinin Jurnalistika və media tədqiqatları məktəbinin elmi işçisi*

**SEYMUR KAZIMOV**

*Azərbaycanda müstəqil jurnalist, tədqiqatçı və münaqişələrin işıqlandırılması üzrə ekspert*

Bu vəsait Avropa Şurasının “Azərbaycan mediasında gender bərabərliyi və digər etik standartların təşviqi” layihəsi çərçivəsində hazırlanıb və vəsaitdə ifadə olunan fikirlər heç bir halda Avropa Şurasının rəsmi mövqeyi kimi qəbul edilə bilməz.

**@Avropa Şurası, oktyabr 2021-ci il**

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE



# MÜNAQİŞƏ JURNALİSTİKASI: AZƏRBAYCAN JURNALİSTLƏRİ ÜÇÜN BƏLƏDÇİ KİTAB

# Mündəricat


**Birinci hissə:** *Münaqişə jurnalistikası dedikdə nəyi nəzərdə tuturuq?* ....4
1.1. Münaqişə jurnalistikası haqqında ilkin fikirlər ....4
1.2. Münaqişə və jurnalistika arasında münasibət ....5
1.3. Münaqişə jurnalistikasının kökündə dayanan fərziyyələr ....6

**İkinci hissə:** *Münaqişə barədə bəzi təməl biliklər* ....8
2.1. Münaqişə anlayışının müəyyən edilməsi ....8
2.2. Münaqişə və zorakılıq ....8
2.3. Münaqişənin səbəbləri ....10
2.4. Münaqişəni yüngülləşdirən və ağırlaşdıran amillər ....11
2.5. Münaqişə şiddətləndikcə nə baş verir? ....11
2.6. Tərəflər münaqişəyə necə yanaşır? ....13
2.7. Münaqişələri konstruktiv həll etmək üçün tərəflər nə etməlidir? ....15

**Üçüncü hissə:** *Jurnalist münaqişəyə necə təsir göstərə bilər?* ....17
3.1. Yaxşı jurnalistika münaqişə həllinə necə töhfə verə bilər? ....18
3.2. Jurnalistlər münaqişəni necə dərinləşdirə bilər? ....21
3.3. Çatdırdığımız məlumatlar münaqişələrə həssasdırmı? ....22

**Dördüncü hissə:** *Münaqişələri işıqlandırarkən veriləcək bəzi əsas suallar* ....26
4.1. Münaqişələri işıqlandırarkən nəzərə alınmalı ümumi suallar ....26
4.2. Sülh prosesində veriləcək suallar ....27

**Beşinci hissə:** *Münaqişənin işıqlandırılması barədə yaradıcı düşünmək* ....29
5.1. Birgə müsahibələr ....29
5.2. Əks tərəfdəki jurnalistlər ....29
5.3. Sual mübadiləsi ....30
5.4. Bütün tərəflərə eyni sualları vermək ....30
5.5. Sülhməramlıları üzə çıxarmaq ....30
5.6. Fikirlərimizi paylaşmaq – blogerlər üçün qeyd ....30

**Altıncı hissə:** *Münaqişə ilə bağlı müsahibəyə yanaşmalar* ....32
6.1. Münaqişə ilə bağlı müsahibə götürmək üçün bəzi ümumi tövsiyələr ....32
6.2. Münaqişənin təsirinə məruz qalmış insanlardan müsahibə götürmək ....33

**Yeddinci hissə:** *Münaqişə zamanında özümüzü qorumaq* ....35
7.1. Münaqişəni işıqlandırarkən təhlükəsiz qalmaq ....35
7.2. Ruhi sağlamlığımızın qayğısına qalmaq ....37

# GİRİŞ

Mediada müharibələr və zorakı münaqişələrlə bağlı olan xəbərlər çox zaman izləyiciləri digər hadisələrdən daha çox cəlb edir, lakin bu hadisələri işıqlandırmaq onu ictimaiyyətə çatdırmalı olan jurnalistlər üçün böyük çətinliklər yarada bilər. Bu, əlbəttə ki, 2020-ci ilin sonlarında Azərbaycan və Ermənistan arasında baş vermiş 44 günlük müharibə zamanı da belə idi. Nəinki hekayələr dramatik idi, həm də auditoriya hadisələrin onların həyatına necə təsir edəcəyi barədə xəbərlərdən narahatlıq keçirirdi. Hətta, adətən, ictimai-siyasi məsələlərə xüsusi maraq göstərməyənlər belə xəbərlərin həris istehlakçılarına çevrildilər; bir çoxu döyüşlərin nəticələrini hələ də izləməyə davam edir.

Bu münaqişənin ön cəbhəsində olan jurnalistlər arasında həm təcrübəli reportyorlar, həm də təcrübəsiz, yeni başlayanlar var idi. Bəziləri ədalətli, dəqiq və məsuliyyətli xəbərlər təqdim edirdilər, digərləri isə təbliğatın tələsinə düşmüşdülər ki, bu da onların etibarlılığına təsir edirdi. Bu bələdçi kitabın məqsədi Azərbaycan jurnalistlərini münaqişə jurnalistikasının prinsipləri ilə tanış etməkdir. Münaqişə jurnalistikası üzrə beynəlxalq dərəcəli təlimçi və onun Azərbaycandan olan həmkarının yazdığı bu bələdçi kitabın başqa bir məqsədi də jurnalistləri müharibə haqqında ictimaiyyəti necə məlumatlandırdıqları barədə düşündürmək və onları digər münaqişələrin konstruktiv işıqlandırılmasına hazırlamaqdır.

Bu bələdçi kitab bir neçə yolla istifadə üçün nəzərdə tutulub. İlk növbədə, o, mütəmadi olaraq münaqişələrin müxtəlif formaları barədə məlumat verən jurnalistlər üçün istinad mənbəyi kimi yazılıb. Onun məqsədi həmin jurnalistləri, çatdırdıqları məlumatların münaqişəyə təsirini nəzərə alaraq, istifadə edə biləcəkləri bir sıra konsepsiyalarla təmin etməkdir. Kitab, həmçinin bu sahədəki jurnalistlərə münaqişəli vəziyyətləri işıqlandırarkən istifadə edə biləcəkləri faydalı alətləri təqdim etmək məqsədi daşıyır və jurnalistlərin hadisə yerində təhlükəsiz qalmasına kömək edə biləcək bəzi strategiyaları diqqətə çatdırır. Bu bələdçi kitabda bloger və sosial media fəallarının da sülhə necə konstruktiv töhfə verə biləcəkləri ilə bağlı fikirlər yer alıb.

Bələdçi kitab, həmçinin jurnalistlər arasında, eləcə də jurnalistlərlə onların redaktorları arasında dialoqa təkan vermək məqsədi daşıyır, çünki onlar münaqişələrin məsuliyyətlə işıqlandırılması problemləri ilə üzləşirlər. Bu, həmçinin tələbələrini münaqişələrin işıqlandırılması ilə bağlı əsas prinsiplərlə tanış etmək istəyən jurnalistika təlimçiləri və ali məktəb müəllimləri üçün mənbə rolunu oynaya bilər.

Bələdçi kitab, içərisində bəzi təkliflər əksini tapmış olsa da, əsasən tövsiyə xarakteri daşıyır. Hər bir münaqişəli vəziyyət fərqlidir və jurnalistlərin iş şəraiti qurumdan quruma kəskin şəkildə fərqlənir. Bəzi jurnalistlər işlərinə yanaşma tərzində böyük azadlığa malikdirlər, digərləri isə işəgötürənlərinin tələbləri ilə həddən artıq məhdudlaşdırılır. Ümid edirik ki, münaqişələrə həssas yanaşan və münaqişənin səbəb olduğu zərərin azaldılmasına töhfə verən jurnalistika prinsiplərini tətbiq etmək üçün, məhdudlaşdırılan qrupun üzvləri bu ideyaların bəzilərini öz şəraitlərinə uyğunlaşdıra biləcək və zərurət yarandıqca, artan mübahisələrdə bu kitabdan istifadə edə biləcəklər.

**DÜŞÜNCƏ ANLARI**

**Bu bələdçi kitab – münaqişənin təsirinə məruz qalmış ölkələrdən olan media təmsilçilərinin, münaqişə jurnalistikası üzrə təlimlərə qatılaraq, öz fəaliyyətlərində tətbiq etdikləri və faydalı hesab etdikləri əsas fikirləri bir araya gətirir. Bu fikirlərə daş üzərində yazılmış, dəyişməz kimi yanaşılmamalıdır. Bəzi fikirlər media materialları ilə fərqlənməyə çalışan müxbirlər arasında davamlı müzakirələrə səbəb olub. Oxucular burada təqdim olunan prinsiplərə yanaşmaları və bu fikirlərin onların şəraitinə necə tətbiq oluna biləcəyi ətrafında düşünməyə sövq edilir. Düşünməyə təşviq etmək məqsədilə mətnə düşüncə anları daxil edilib ki, oxucular öz reaksiyalarını nəzərdən keçirmək üçün fasilə edə bilsinlər. Yeddi hissənin hər birinin sonunda oxuculara öz fikirlərini qısaca bildirmək üçün yer ayrılıb.**

# Birinci hissə: Münaqişə jurnalistikası dedikdə nəyi nəzərdə tuturuq?

## 1.1. Münaqişə jurnalistikası haqqında ilkin fikirlər



Hər dəfə münaqişə haqqında məlumat verdiyimiz zaman münaqişənin təsir əhatəsində olan insanların həyatını ya yaxşılaşdıra, ya da pisləşdirə bilərik. Hazırladığımız materiallar insanların həyat xilas edən qərarlar qəbul etməsinə, rəqiblərin bir-birini daha yaxşı anlamasına və icmaların öz narahatlıqlarını bölüşməsinə imkan yarada bilər. Onlar, həmçinin qorxu və nifrət oyada, anlaşılmazlıqları artıra və sülh perspektivlərinə zərər yetirə bilər.

**DÜŞÜNCƏ ANI 1:**

**Bu mətni oxumağa başlamazdan əvvəl münaqişə haqqında yazan bir jurnalist rolunda özünüzü necə hiss etdiyinizi düşünün. Münaqişələr haqqında hekayələri təqdim edərkən nəyə nail olmaq istərdiniz? Kimə xidmət edirsiniz?**

İnsanların necə reaksiya verəcəyini müəyyən edə bilmərik, ancaq təqdim etdiyimiz materialların potensial təsirini nəzərə alırıqsa, zərər yetirməmək üçün addımlar ata bilərik və hətta sülh ehtimalını da artıra bilərik. Bu çox zaman *münaqişə jurnalistikası* adlandırılan məlumatların ictimaiyyətə çatdırılmasına yanaşmanın mahiyyətidir.

Bu, jurnalistikaya elə bir yanaşmadır ki, münaqişə haqqında məlumat verməyə başladığımız anda hadisənin tərkib hissəsi olduğumuz nəzərə alınmalıdır. Kiminlə danışmağımız, hansı sualları verməyimiz, hansı şəkilləri seçməyimiz və tutduğumuz baxış bucaqları tərəflərin davranışlarına və münaqişələrin necə inkişaf edəcəyinə təsir edir. Münaqişəni işıqlandıran reportyorlar başa düşür ki, gördükləri iş insanların həyatına təsir edir. Bunu dərk etmələri onların ədalətli, vicdanlı, dəqiq, müstəqil və əhatəli məlumatı təmin etmək öh-

dəliklərinin əsasını təşkil edir. Bunlar yaxşı, peşəkar jurnalistikanın bütün keyfiyyətləridir.

Beləliklə, münaqişəyə həssas yanaşaraq məlumatların çatdırılması ilə peşəkar məlumatlandırma arasında fərq varmı? Xeyr və Bəli. Xeyr, ona görə ki, münaqişəni işıqlandıran media mənsubu da digər jurnalistlər kimi mükəmməllik prinsiplərinə sadiqdir. Bəli, ona görə ki, məlumatın mükəmməl şəkildə təqdim edilməsinin münaqişənin dağıdıcı potensialını məhdudlaşdırmağa və əzab-əziyyətləri yüngülləşdirməyə kömək edə biləcəyini düşünmək onlara stimul verir. Bunu bilmək onların öz işlərinə yanaşmalarını təyin edir, onları daha dərindən araşdırma aparmağa və işıqlandıracaqları hekayələr haqqında daha geniş düşünməyə ruhlandırır. Özlərini vasitəçi və ya sülhməramlı kimi görmürlər, amma başa düşürlər ki, yaxşı jurnalistika münaqişənin sülh yolu ilə idarə olunmasına və həllinə imkan verən şəraitin yaradılmasına töhfə verə bilər.

Münaqişələrin həssas yanaşma ilə işıqlandırılması – müharibələrə, şiddətli qarşıdurmalara məruz qalmış ölkələrdə və icmalarda çalışan jurnalistlər üçün peşəkar jurnalistikanın prinsiplərinə xələl gətirmədən konstruktiv fərq yaratmağa imkan verir.

Bu qısa bələdçi kitabda münaqişə jurnalistikasının əsasını təşkil edən fərziyyələri, yaxşı jurnalistikanın fərq yarada biləcəyi yolları və münaqişə haqqında məlumat verərkən çəkinməli olduğumuz təcrübələri araşdıracağıq. Burada, həmçinin jurnalistlərin münaqişə hekayələrini necə çatdıra biləcəyinə dair bəzi tövsiyələri və təhlükəsizliyin qorunması ilə bağlı bəzi məsləhətləri tapacaqsınız.

## 1.2. Münaqişə və jurnalistika arasında münasibət

Demək olar ki, bütün xəbərlərdə münaqişə elementi olduğunu qəbul etdiyimiz zaman, məlumatların münaqişəyə həssas yanaşma ilə ötürülməsi xüsusilə əhəmiyyət kəsb edir. Niyə? Çünki xəbərlər həmişə dəyişikliklə əlaqədardır və dəyişiklik, demək olar ki, həmişə münaqişə ilə müşayiət olunur. Dəyişiklik nadir hallarda mübahisəsiz olur.

İnsanlar ehtiyaclarını qarşılamaq və resurslara çıxış əldə etmək üçün dəyişikliklər etməyə, bərabərsizlikləri və ədalətsizliyi azaltmağa çalışdıqları zaman münaqişələr yaranır. İnsanlar imtiyazlarını qoruyub saxlamaq və ya dəyər verdikləri adətləri, prinsipləri, insanları və mülkiyyəti qorumaq uğrunda mübarizə apararkən dəyişikliyə müqavimət göstərdikləri zaman münaqişə meydana gəlir. Münaqişə, həmçinin insanlar dəyişikliyin mahiyyəti, necə və nə qədər tez baş verməsi haqqında fərqli fikirlərə malik olduqları zaman baş verir. Bəziləri, məsələn, sosial dəyişikliklərə yavaş, təkamüllü yanaşmanın tərəfdarı ola bilər, digərləri daha sürətli və inqilabi cavab reaksiyası tələb edə bilər.

Münaqişələr miqyasına və intensivliyinə görə çox fərqli ola bilər. İşğal edilmiş torpaqları geri qaytarmaq üçün milli mübarizələr böyük qarşıdurmalara səbəb ola bilər, sosial şərait və siyasi azadlıqlar uğrunda mübahisələr etiraz və nümayişlərlə nəticələnə bilər, LGBTİ icmasının üzvlərinin mübarizəsi isə nifrət nitqi və quldurluq halları ilə qarşılıq görə bilər. Səbəbindən və miqyasından asılı olmayaraq, qarşıdurmalarla nəticələnərsə, münaqişələr əzab-əziyyətə səbəb olur və uzun müddət davam etsə və şiddətlənməsinə imkan verilərsə, bu əzab-əziyyət daha da arta bilər. Münaqişələrin mənfi nəticə ilə sonlanması mütləq deyil; əməkdaşlıq əsasında tənzimləndikdə, nəticədə hər kəs üçün faydalı olan müsbət ictimai və siyasi dəyişikliklərlə nəticələnə bilər.

Jurnalist olaraq, biz, dəyişikliyin fərdlərə, icmalara və millətlərə, ətraf mühitə, siyasi hərəkatlara, iqtisadiyyata və sosial institutlara təsirləri ilə maraqlanırıq. Biz, həmçinin dəyişikliyin necə baş verməsi və bu prosesdə insanların zərər görüb-görməməsi ilə maraqlanırıq. Bu, zorakı, yoxsa dinc bir prosesdir? Kimlər iştirak edir və kimlər istisna olunur? Dəyişiklik qalıcı həllər ilə nəticələnəcək, yoxsa gələcəkdə qəfil partlayışlara zəmin yaradacaq? Bu mövzularda reportaj hazırlayan jurnalistlər dərindən dərk edir ki, insanlar öz siyasi, sosial, iqtisadi və təbii

mühitlərindəki dəyişikliklərə necə davranacaqlarını bizdən aldıqları məlumatlarla təyin edirlər. Biz, həmçinin bilirik ki, insanlar xəbərlərə ona görə baxırlar ki, münaqişənin qarşı tərəfdəki üzvlərinə qarşı duyğu və davranışlarını müəyyən edə bilsinlər.

## 1.3. Münaqişə jurnalistikasının kökündə dayanan fərziyyələr

Bir jurnalistika yanaşması olaraq, münaqişə jurnalistikası işimizə necə yanaşdığımızı bildirən bir neçə təməl və qarşılıqlı əlaqəli fərziyyələrə əsaslanır. Bu fərziyyələrə aşağıdakılar daxildir:

- Münaqişəyə cəlb olunan bütün tərəflərin ehtiyacları və maraqları məqbul dərəcədə təmin edilməyincə, münaqişələrin həlli dayanıqlı ola bilməz. Sülh və münaqişə tədqiqatları sahəsindən çıxarılan dərs odur ki, bütün tərəflər həllin nəticələrindən razı qalmadığı təqdirdə, münaqişə davam edəcək.

- Jurnalistlər və xəbər qurumları hadisələri bütün tərəflərin ehtiyaclarını nəzərə alacaq şəkildə çatdırmaqla münaqişələrin həllinə imkan verən şəraitin yaradılmasına əhəmiyyətli töhfə verə bilərlər.

Münaqişəyə məruz qalmış cəmiyyətlərə mənsub jurnalistlər üçün bu iki fərziyyə əhəmiyyətlidir. Həmin fərziyyələrə görə, jurnalistlər öz cəmiyyətlərinə xidmət etmək istədikləri təqdirdə, digər icmaların maraqlarının tanınmasını və nəzərə alınmasını təmin etməkdə də maraqlı olmalıdır. Münaqişənin nəticəsi bütün tərəflər üçün ədalətli olmalıdır. Yalnız iştirak edən bütün tərəflərin ehtiyac və maraqlarının vacib olduğunu bildiyimiz və bu qruplara ədalətli münasibət göstərdiyimiz halda sülh işinə töhfə verə bilərik.

- Jurnalist münaqişə zamanı müsbət töhfə verə bilsə də, müəyyən bir qrupun gündəmini və ya maraqlarını təbliğ etməməli və ya müəyyən bir həll yolunu müdafiə etməməlidir.

Münaqişənin necə inkişaf etməsinə və formalaşmasına çalışmaq heç vaxt bizim işimiz olmamalıdır. Bizim rolumuz insanların əsaslı qərarlar qəbul etməsi üçün lazım olan məlumatları təmin etməkdir. Müəyyən bir mövqenin arxasında dayandığımız an – alternativ mövqelərə üstünlük verən qrupların bizə olan etibarını qurban verdiyimiz andır və bu etibar olmadan çox az şey edə bilərik.

- Biz daima işimizin təsirini və izləyicilərimizin ehtiyaclarını nə dərəcədə ödədiyimizi düşünməliyik.

Biz nəinki işimizin münaqişələrin konstruktiv və sülh yolu ilə həll edilməsinə kömək edə biləcəyindən xəbərdar olmalıyıq, həmçinin yazılarımızın münaqişələrə necə mənfi təsir göstərə biləcəyini də düşünməliyik. Əgər yazımız qeyri-dəqiq, qərəzli və ya sensasiyalı olarsa, jurnalistikamız münaqişələrin və insanların əzab-əziyyətlərinin uzanmasına və şiddətlənməsinə kömək edə bilər.

- Bizim jurnalistikamız cəlbedici və inandırıcı olmalıdır.

Münaqişəni işıqlandıran jurnalistlərin qarşılaşdıqları çətinliklərdən biri də, auditoriyanın diqqətini çəkməkdir. Hekayələrimiz insanları cəlb etmirsə, bunun heç bir təsiri olmayacaq. Xəbəri sensasiyasız təqdim etməyin yaradıcı yollarını axtarmalıyıq.

Münaqişə jurnalistikasını fərqləndirən cəhət – jurnalistlərin praktik fəaliyyətindən əlavə, onların işlərinə həssas yanaşmaları ilə bağlıdır. Münaqişə vaxtlarında konstruktiv olaraq fərq yarada biləcəyimizə inanırıqsa, bu, məlumatı çatdırma üsulumuzu və ona yanaşma tərzimizi formalaşdıracaq.

- Jurnalistlər münaqişəni dərk etsələr, hadisələri və prosesləri çatdırarkən məlumatlarla daha yaxşı təchiz olunacaqlar, bu da qarşılıqlı anlayışı və tərəflərin sülhə nailolma ehtimalını artıracaq.

İdman müxbirlərinin işıqlandırdıqları oyunlar haqqında müəyyən qədər bilmələrini və biznes üzrə müxbirlərin iqtisadiyyat sahəsində işlək

biliklərə malik olmasını gözləyirik; biz, həmçinin münaqişəni işıqlandıran müxbirlərin onun səbəbləri, dinamikası və həlli haqqında müəyyən dərəcə bilmələrini gözləməliyik. Ümumi münaqişə nəzəriyyəsi haqqında biliklərə malik olmağımız dünyanı dərk etmək və hadisələri daha məlumatlı şəkildə çatdırmaq qabiliyyətimizi əhəmiyyətli dərəcədə artıra bilər.

| **Birinci hissəyə dair qeydlər:** |
| --- |
| |
| |
| |
| |

# İkinci hissə: Münaqişə barədə bəzi təməl biliklər

Münaqişələr həmişə göründüklərindən daha mürəkkəb olur. Bizim çətinliyimiz onları başa düşməkdən və mürəkkəb hadisələri, prosesləri izləyicilərimizə izah etməyin yollarını tapmaqdan ibarətdir. Bələdçi kitabın bu hissəsində: 1) münaqişə haqqında anlayışımızı artıran, 2) münaqişələrin mürəkkəbliyini izah edən hekayələr danışmağın yollarını göstərən, 3) işimizin münaqişələrə təsiri haqqında bizi daha dərindən düşünməyə vadar edən bir sıra faydalı anlayışları, nəzəriyyələri və vasitələri araşdıracağıq.

## 2.1. Münaqişə anlayışının müəyyən edilməsi

**DÜŞÜNCƏ ANI 2:**

**Bələdçi kitabın bu hissəsini nəzərdən keçirərkən daha əvvəl işıqlandırdığınız və ya şahidi olduğunuz bəzi münaqişələr haqqında düşünün. Bu mətnə daxil olan anlayışların həmin münaqişələrə necə tətbiq oluna biləcəyini nəzərdən keçirin. Onlardan öz reportajlarınızda necə istifadə edə bilərsiniz?**

Münaqişə üzrə nəzəriyyəçilər münaqişə anlayışının bir çox tərifini veriblər. Bunlar, adətən, oxşar mövzuları gündəmə gətirirlər, necə ki cənubi afrikalı münaqişə mütəxəssisi Mark Anstinin tərifində belə əks olunub:

**Münasibətlərdə** münaqişələr o zaman yaranır ki, tərəflər istəklərinin eyni vaxtda həyata keçə bilməyəcəyinə **inanır** və ya **dəyərlərində, ehtiyaclarında** və ya **maraqlarında** fikir ayrılığını **dərk edir** ... və qarşılıqlı münasibətdə maraqlarını qorumaq və ya inkişaf etdirmək üçün bir-birilərini ortadan qaldırmaq, zərərsizləşdirmək və ya dəyişdirmək üçün əllərində olan gücü **məqsədyönlü şəkildə səfərbər edirlər**.[1]

Bu tərifin mühüm elementləri vurğulanıb. Münaqişə iki və ya daha çox tərəf arasındakı münasibətlərdə meydana gəlir və bu münasibətlər hadisələrin necə cərəyan edəcəyinə təsir edir. Tərəflər arasındakı tarix ziddiyyət ilə xarakterizə edildikdə qarşıdurma olmadan həll yollarına çatmaq daha da çətinləşir. Keçmiş münasibətlərin güclü olduğu hallarda tərəflərin əməkdaşlıq şansı artır.

Bu tərifin digər əsas elementi mülahizəyə istinad etməsidir. Sadəcə tərəflərin üst-üstə düşməyən məqsədlərə malik olmalarını anlamaları da münaqişənin yaranması üçün kifayətdir.

Jurnalist olaraq, biz bir-biri ilə mübarizə aparan tərəflər arasındakı münasibətlərin tarixindən xəbərdar olmalıyıq. Müxtəlif tərəflərin mübahisəli məsələlərə necə baxdığını da anlamalıyıq.

## 2.2. Münaqişə və zorakılıq

Münaqişə və zorakılıq çox vaxt eyniləşdirilir, lakin onlar fərqli şeylərdir. Zorakılıq münaqişənin təzahürüdür. Zorakılıq – tərəflərin zərər verməklə və ya təhdid etməklə başqalarını öz işlərini görməyə məcbur etməyə çalışdıqları bir yoldur.

Aparıcı münaqişə mütəxəssisi, çox zaman sülh araşdırmalarının banisi kimi tanınan Yohan Qaltunq zorakılığı üç növə ayırır: birbaşa zorakılıq, mədəni zorakılıq və struktur zorakılığı.

[1] Ansti, M. 2008. Dəyişikliklərin idarə edilməsi: münaqişə ilə bağlı danışıqların aparılması. Keyptaun: Juta.

- **Birbaşa zorakılıq** ən çox nəzərə çarpandır, insanlara və mülkiyyətə fiziki hücumlara aid edilir. Nümunələrə daxildir: zorlama, bombalama, müharibə, işgəncə, soyqırımı və digər insan hüquqları pozuntuları.
- **Mədəni zorakılıq** insanları psixoloji cəhətdən sarsıtmaq və onların özünə verdiyi dəyəri yox etmək məqsədi daşıyan hərəkətlərə aid edilir. Nümunələrə daxildir: nifrət çıxışları, irqçi zarafatlar və gender, eləcə də cinsi, dini və etnik mənsubiyyətə görə ayrı-seçkilik.
- **Struktur zorakılığı** "ədalətsiz sosial, iqtisadi və siyasi strukturların fərdlərə və ya qruplara təzyiq etməsi, zərər yetirməsi və ya əlverişsiz vəziyyətə salmasının sistematik yolu" kimi təsvir edilir.[1]

Zorakılığın bu müxtəlif formaları çox zaman eyni vaxtda meydana gəlir və bir-birinə təsir edir. Struktur zorakılığı çox zaman birbaşa zorakılıq və mədəni zorakılıq ilə birlikdə baş verir. Mədəni zorakılığa məruz qalan insanlar çox zaman kimliklərini vurğulamaq üçün birbaşa zorakılığa əl atır.

Birbaşa zorakılıq, adətən, görünən olduğu üçün xəbərlərdə yer alan tipik zorakılıq formasıdır, ancaq icmalarımızda qarşıdurmaya səbəb olan zorakılığın digər formalarından xəbərdar olmalı və bunların da ifşa olunmasını təmin etməliyik.






[1] Rama, E.K. & Gürten, K. 2018. Münaqişə jurnalistikasının tədrisi üzrə vəsait. ForumZFD. Burdan əldə edə bilərsiniz: https://www.forumzfd.de/en/publikation/conflict-sensitive-journalism-teaching-guide-philosophy-and-practice

## 2.3. Münaqişənin səbəbləri

Münaqişələrə gətirib çıxaran bir çox amil var; bunları müəyyən edə bilsək, münaqişələrin niyə baş verdiyini, onları həll etmək üçün nələr lazım olduğunu təxmin edə bilərik. Aşağıda tədqiqatçıların münaqişəyə gətirib çıxardığını müəyyən etdiyi əsas elementlərdən bəziləri verilib:

- **Qıtlıq**

Münaqişələr o zaman tez-tez baş verir ki, insanlar bütün tərəflərin ehtiyaclarını ödəmək üçün kifayət qədər resurs olmadığına inanır. Torpaq və su kimi tükənən resurslarla bağlı münaqişələri idarə etmək xüsusilə çətin ola bilər.

- **Struktur balanssızlığı**

Qıtlıq problemi ilə əlaqəli olaraq, resursların paylanmasında həqiqi bərabərsizlik olduğu üçün və ya bərabərsizlik olduğu düşünüldüyü üçün baş verən münaqişələrdir. Bu münaqişələr o zaman tez-tez baş verir ki, dominant qruplar resursların qeyri-bərabər bölgüsünü təmin etmək üçün güclərindən və möhkəmlənmiş imtiyazlı mövqelərindən istifadə edir. Strukturlar müəyyən irq, din və ya etnik mənşəli insanlara imtiyaz verdikdə bu qarşıdurmalar çox zaman irqi, dini və etnik aspektləri ehtiva edir.

- **Məqsəd uyğunsuzluğu**

Münaqişələr o zaman tez-tez baş verir ki, tərəflər fərqli məqsədlərə sahib olduqlarını düşünürlər. Bəzi qrupların muxtariyyət və müstəqillik tələbləri digərləri tərəfindən milli birliyə təhdid kimi qiymətləndirilə bilər. Mədən şirkətlərinin torpaq tələbləri icmanın öz təbii mühitini qorumaq və nəsli kəsilməkdə olan növləri xilas etmək ehtiyaclarına birbaşa zidd ola bilər.

- **İnformasiya münaqişələri**

İnsanlar əsaslı qərarlar qəbul etmək üçün lazım olan məlumatlara malik olmadıqda münaqişələr yarana bilər. Tərəflər başqalarının hərəkətlərinin arxasında dayanan səbəbləri səhv şərh etdikdə bu, qarşıdurmanın artması ilə nəticələnə bilər. Bu da, xüsusilə, aydın ünsiyyət kanallarının olmaması halında mümkündür. Ansti iddia edir ki:

> Paylaşılan və legitim məlumatların olmaması ... güc mübarizələrinə gətirib çıxarır və münasibətlərdə inamsızlığın artmasına səbəb olur ... və tərəflərin məsələlərdə bir-birinin mövqelərini anlama qabiliyyətini azaldır, güclərini göstərərkən qarşı tərəfdən [və tərəflər içində] yanlış mühakimə ehtimalını artırır.[1]

- **Şəxsiyyətlərarası münasibətlər**

Qruplararası münaqişələr çox zaman liderlər arasındakı şəxsiyyətlərarası münaqişələrdən qaynaqlanır. Liderlər çox zaman tərəfdarlarını şəxsən kin bəslədikləri insanlara qarşı çıxmağa təşviq etmək üçün öz təsir güclərindən istifadə edir. Tərəfdarlar bəzən liderlərə həqiqi sədaqət səbəbiylə bu mübarizələrə qoşula bilər; liderin himayəsinə güvəndikləri üçün də bunu edə bilərlər. Elə ki, tərəfdarlar bir-birinə zərər yetirir, artıq onların qarşılıqlı həqiqi narazılıqları yaranır və münaqişə tamamilə yeni miqyas alır.

- **Qeyri-müəyyənlik**

Keçid və dəyişiklik dövrlərində, yeni normaların qurulduğu və qrupların bir-biri ilə ortaq cəhət tapmaqda çətinlik çəkdikləri zamanlarda münaqişələrin başlaması nadir hal deyil. Avtoritar idarəetmə ilə basdırılan münaqişələrin yaranan əlverişli siyasi mühitdə ortaya çıxması keçid dövrlərində adi haldır. Fikir ayrılıqları liderlər arasında makrosəviyyədə həll oluna bilər. Ancaq rəqib qrupların üzvləri arasında düşmənçilik davam edə və bu da davamlı qarşıdurmalara səbəb ola bilər.

- **Kimlik**

İnsanlar özləri ilə ortaq ideoloji, siyasi, mədəni və dini inancları paylaşan insanlarla əlaqə qurmağa və təhdidlərə məruz qalmadan fikirlərini açıq ifadə etməyə ehtiyac duyurlar. Onlar,

[1] Ansti (2008: 29)

bu qruplara bağlılıq hiss etdikləri üçün, qrupun bir üzvünə qarşı hər hansı təhdidi özlərinə qarşı ünvanlanmış kimi qəbul edə bilər. Bu, münaqişə üçün ciddi nəticələr doğura bilər, çünki liderlərin qrup kimliyinə təsir edən problemlər ətrafında insanları səfərbər etməsinə imkan yaradır. Bu da öz planlarını həyata keçirmək istəyən insanlara imkan verir ki, qrup kimliyinə təhdidlər barədə fikirləri manipulyasiya edərək öz maraqları üçün insanları səfərbər etsin.

## 2.4. Münaqişəni yüngülləşdirən və ağırlaşdıran amillər

Münaqişələr haqqında məlumat verərkən, gərginliyi daha da artıra biləcək və nəticədə zorakılığa səbəb ola biləcək faktorlardan xəbərdar olmalıyıq. Münaqişəli vəziyyətləri qiymətləndirərkən, münaqişələrin daha da dərinləşə biləcəyini başa düşməyimizə imkan verən bir sıra suallar verməliyik.

- **Tərəflər arasındakı münasibətlərin tarixi nədir?** Onların tarixində uzlaşmazlıq və zorakılıq varmı? Əgər varsa, zorakı qarşıdurmanın tətiklənməsi çox tez baş verə bilər. Keçmiş fikir ayrılıqlarını sülh yolu ilə həll ediblərmi? Ediblərsə, çətinliklə qurulmuş münasibəti təhlükəyə atmamaq üçün, tərəflər münaqişənin bir nöqtədən kənara çıxmasının qarşısını ala bilərlər.
- **Ortaq dəyərləri bölüşürlərmi?** Tərəflər bir-birilərinin hüquqlarını tanıdıqları və qəbul etdikləri hallarda bu, sülh yolu ilə həllinə imkan verə bilər. Dəyərlərdə köklü fərqlər olduğu təqdirdə isə münaqişə daha da şiddətlənə bilər.
- **Tərəflərin alternativ həlləri varmı?** Tərəflər bir sıra mümkün həllər arasında seçimə malik olduqda, onların münaqişələrin böyüməsinə imkanvermə ehtimalı azalır. Qarşıdurmanın yeganə yol olması isə, münaqişənin şiddətlənmə potensialını sürətlə artırır.
- **Tərəflər münaqişə idarəetməsi üzrə məqbul forumlara müraciət edə bilərlərmi?** Tərəflər üçün münaqişə idarəetməsi üzrə məqbul forumun mövcud olması münaqişələrin böyüməsinin qarşısını ala bilər.
- **Qruplar bir-biri ilə ünsiyyət qura bilirmi?** Aydın və açıq ünsiyyət kanalları qarşıdurmanın artma ehtimalını azaldır, ancaq bu kanallar bloklandığı təqdirdə anlaşılmazlıqların artması və münaqişələrin dərinləşməsi ehtimalı artır.

## 2.5. Münaqişə şiddətləndikcə nə baş verir?

Münaqişəni araşdıran nəzəriyyəçilər qarşıdurmalar artdıqca baş verən bir sıra ümumi dinamikanı müəyyən ediblər. Bunların fərqində olmalıyıq, çünki onlar münaqişələrin nə vaxt dərinləşəcəyini bilmək və necə inkişaf edəcəyini təxmin etmək imkanı verir. Bu cədvəldə münaqişələr şiddətləndikcə tərəflər arasında baş verənlərin ümumi mənzərəsi öz əksini tapıb.

| **Münaqişənin böyüməsi dinamikası**[1] | |
|---|---|
| Bir nöqtədən | Digər nöqtəyə |
| Məhdud məsələlər – Tərəflər çox zaman spesifik məsələlərlə bağlı aydın, müəyyən edilmiş tələblər irəli sürürlər. | Genişlənmiş məsələlər – Tələblər daha da genişlənir və mürəkkəbləşir, bu da onların yerinə yetirilməsini çətinləşdirir. |
| Məhdud investisiya – Tərəflər münaqişəyə yalnız məhdud miqdarda maddi və insan resursları yatırırlar. | Artan investisiya – Tərəflər münaqişəyə daha çox vəsait qoyurlar, lakin daha çox sərmayə qoyduqca mənfəətsiz münaqişədən çəkilmək də bir o qədər çətinləşir. |

[1] Anstinin (2008) əsərindən adaptasiya edilmişdir.

| | |
|---|---|
| Az iştirakçı – Yalnız məsələlərə birbaşa aidiyyəti olanları əhatə edir. | Daha çox iştirakçı – Qruplar dəstək üçün müttəfiqlərini cəlb edirlər. Hər bir yeni qrup öz planlarına və maraqlarına malikdir ki, bu da mürəkkəbliyi artırır. |
| Neytral mülahizələr – Tərəflər bir-biriləri barədə nisbətən neytral və bəzən hətta müsbət fikrə malik olurlar. | Mənfi mülahizələr – Tərəflər bir-birini ittiham etdikcə düşmən kimi görünməyə başlayırlar. |
| Açıq ünsiyyət – Tərəflər bir-biri ilə açıq ünsiyyət qururlar. | Zəif ünsiyyət – Ünsiyyət azalır və əks tərəfin ismarıcına çox vaxt şübhə ilə yanaşılır. |
| Neytral münasibətlər – Tərəflər arasındakı münasibətlər və qarşılıqlı əlaqələr neytral və ya müsbətdir. | Düşmən münasibətləri – Qrup üzvləri arasındakı şəxsi münasibətlər bütün səviyyələrdə tənəzzül edir. |
| "Göyərçinlər" rəhbərlik edir – Qruplara sülh yolu ilə həll yolları axtarmağa açıq olan mülayim liderlər rəhbərlik edir. | "Şahinlər" rəhbərlik edir – Qruplar güclü liderlər tərəfindən müdafiəyə ehtiyacları olduğuna inandıqları üçün döyüşkən liderlər önə çıxır. |

Münaqişələrin şiddətlənməsi ilə bağlı əsas problem ondan ibarətdir ki, o, spiral təsiri ilə nəticələnir. Münaqişələr davam etdikcə, daha da mürəkkəbləşir və gərginləşir, digər problemlərlə yanaşı xərclər də artır. Zorakılıq aktları qisasalma hərəkətlərini və bu da, öz növbəsində, qarşı tərəfi cəzalandırma əməllərini meydana çıxarır. Bu dövriyyə tərəflər əldən düşənə qədər davam edə bilər. Aşağıda münaqişələrin şiddətlənməsi ehtimalını artıran bəzi amillər verilib:

- Qruplar imic itirməkdən qorxurlar. Liderlərin imiclərini itirmədən və ya öz tərəfdarları tərəfindən zəif hesab edilmədən güzəşt lehinə arqument gətirməsi getdikcə çətinləşir. Sərt mövqelərdən geri çəkilmək liderlərin öz mövqelərində qeyri-sabit görünməsinə səbəb ola bilər.
- Qruplarda tunel baxışı inkişaf edir. Tərəflər məsələlərə digər tərəfin nöqteyinəzərindən baxmaq qabiliyyətini itirirlər. Tərəflər yalnız öz mövqelərini irəli sürmək və müdafiə etməkdə qapanıb qalırlar və digər tərəflərin də ehtiyac və maraqlara malik olduğunu etiraf etməkdə çətinlik çəkirlər.
- Qruplar daha sıx birləşirlər. Qrup üzvləri bir mövqeyə uyğunlaşmaq, tabe olmaq üçün təzyiqin artdığını hiss edirlər. Münaqişəyə mülayim mövqe və ya barışıq yanaşması tərəfdarı olan hər kəs rədd edilə bilər və ya xain kimi damğalana bilər.
- Qruplar intiqam almağa çalışır. İnsanların məruz qaldığı iztirablar əksər hallarda güclü şəkildə qarşı tərəfin cəzalandırılmasını görmək istəyini doğurur. Qruplar hər iki tərəfə zərər yetirildiyini nadir hallarda etiraf edir. Münaqişə bitdikdən sonra cavab tədbirindən (repressaliya) qorxan qruplar vuruşmanı davam etdirməyin daha yaxşı olduğunu düşünə bilər.
- Münaqişələr o qədər mürəkkəbləşir ki, insanlar fikir ayrılıqlarının həlli prosesinə haradan başlayacaqlarını bilmirlər.

Bunları qavramaq bizə nələrin baş verə biləcəyini qabaqcadan təxmin etmək üçün yol göstərir, münaqişəyə və müxtəlif insanların fərqli davranışlarına aydınlıq gətirmək üçün məlumatlanmış şəkildə suallar verməyə imkan verir. Bu suallar tərəflərin özlərinə və ya münaqişələrin necə həll ediləcəyi ilə bağlı rəy verə biləcək ekspertlərə ünvanlana bilər. Biz, həmçinin münaqişənin zorakılığa nə zaman çevrilə biləcəyini təxmin edə bilərik. Aşağıda zorakılığın baş verə biləcəyini göstərən bəzi meyillər verilib:[1]



[1] Bax: Ansti, 2008: 324–325.

- Tərəflərdən biri və ya bir neçəsi yüksək səviyyədə narazılıq və məyusluq yaşayır.
- Tərəflərdən biri və ya bir neçəsi digərinin tələbləri və ya dəyişiklik ehtimalları ilə təhdid olunur.
- İnsanların münaqişələri həll etmək üçün müraciət edə biləcəyi etibarlı forumlar yoxdur. Sosial nəzarət sistemlərinə, məsələn, polis qüvvələrinə etibar olunmur və ya etibarsız olduğu düşünülür.
- Tərəflər öz maraqlarını yürütmək və ya müdafiə etmək mövzusunda zorakılığa alternativ görmürlər.
- Tərəflər zorakılığın ideoloji cəhətdən məqbul olduğunu və şərait nəzərə alınmaqla legitim olduğunu düşünürlər.
- Tərəflər arasındakı münasibətlərdə zorakılıq təcrübəsi vardır.
- İnsanlar müxtəliflik və ya dəyişikliklərin öhdəsindən gəlmək üçün yeni yollar tapmaqda çətinlik çəkdikcə sosial normaların tənəzzülü baş verir.
- Şəxslər hesab etmir ki, öz qruplarında zorakılığın qarşısının alınmasında məsuliyyət daşıyırlar.
- Qrup üzvlərinin empatiya hissini itirdiyinə dair sübutlar var.
- Kütləvi şəraitdə anonimlik hissi yaranır və məsuliyyət azalır.
- Münaqişə zamanı ünsiyyət kanalları zəif olur, potensial hücum və zorakılıq barədə şayiələrə yol açır; bu da insanların vəziyyəti yanlış anlamasına səbəb olur.

## 2.6. Tərəflər münaqişəyə necə yanaşır?

Mütləq deyil ki, bütün münaqişələr qruplar arasında birbaşa düşmənçiliklə nəticələnsin. Tərəflər hər hansı bir *rəqabət yanaşmasına* üstünlük verə bilər və ya *əməkdaşlıq yanaşmasını* seçərək hər iki tərəfi qane edəcək nəticələrə dair danışıqlar apara bilərlər. Sonuncusu, ümumiyyətlə, uzunmüddətli perspektivdə ən sərfəlisidir, lakin tərəflər alternativi düşünməzdən əvvəl çox zaman rəqabət yanaşmalarına əl atmaqla başlayırlar. Bəzən onların seçimi olmur. Rəqib dürüst danışıqlar aparılmasından imtina edərsə, digər tərəfin seçimləri məhdudlaşa bilər. Aşağıdakı cədvəldə tərəflərin münaqişə ilə mübarizə aparmaq üçün istifadə edə biləcəkləri dörd fərqli rəqabət yanaşmasına diqqət yetiririk. Bunların hər birinin müəyyən çatışmazlıqları var.



**Münaqişəyə ən yayğın rəqabət yanaşmaları**

| Strategiyalar | Səbəblər | Nəticələr |
|---|---|---|
| Tam qələbə | Tərəflər hiss edirlər ki, rəqiblərini güzəştə getməyə məcbur etmək və ya tam məğlubiyyətlə üzləşdirmək üçün kifayət qədər resursları səfərbər edə bilərlər. | • Tərəflər inanmağa başlayırlar ki, ən çox qüvvə səfərbər edə bilən tərəf istədiyinə nail olacaq.<br>• Tərəflər qarşı tərəfi öyrənmək imkanından məhrumdurlar.<br>• Qələbəni təmin etmək üçün daha çox resursların cəlb olunması. Qalibiyyətin qiyməti faydalarından daha yüksək ola bilər.<br>• Münaqişənin həqiqi səbəbləri həll edilmir.<br>• Tərəflərə gələcək münaqişələrin idarə olunmasında kömək edə biləcək əhəmiyyətli münasibətlər qurulmur.<br>• Məğlub olan tərəf güc topladıqdan sonra yenidən mübarizəyə başlayır.<br>• Təxribat və zorakılıq hərəkətlərinin davam edəcəyi ehtimal olunur. |

| | | |
|---|---|---|
| Yayınmaq və ya güzəşt | Tərəflər qorxurlar ki, münaqişəyə daxil olmağın xərcləri çox yüksək ola bilər. Onlar öz hesablarına güzəştə gedərək qarşıdurmadan yayınmağa çalışırlar. | • Yayınmaq – yalnız tərəflərin məsələləri həll etməli olduğu vaxtı təxirə salır.<br>• Tərəflər problemləri birgə həll etməyə, bir-birinin ehtiyaclarını və maraqlarını öyrənməyə cəhd etmirlər.<br>• Tərəflər yanlış təsəvvürləri aydınlaşdırmaq və ya öz stereotiplərini sorğulamaq istəmirlər.<br>• Qruplar məyus vəziyyətdədir.<br>• Bir qrup kiçik güzəştlərə getməyə başlayarsa, qarşı tərəfin getdikcə daha çox tələb irəli sürməsi ehtimalı artır. |
| Səthi həll yolları | Tərəflər altda yatan səbəbləri nəzərə almadan ən sadə həll yollarını qəbul edirlər. | • Belə bir illüziya yaradılır ki, problem həll edilib.<br>• Əsas məsələlərin həll olunmaması o deməkdir ki, həll yolu müvəqqəti olacaq.<br>• Razılaşmalar uğursuz olarsa, tərəflər birlikdə işləməyin əhəmiyyətinə inamlarını itirə bilər. |
| Sövdələşmə | Tərəflər "ver və götür" prosesinə daxil olurlar ki, hər biri mümkün qədər az güzəştə getməyə, qarşı tərəfdən bacardıqları qədər çox güzəşt əldə etməyə çalışırlar. | • Tərəflər münaqişənin kökündə dayanan səbəbləri həll etmək əvəzinə gündəlikdə olan məsələlərə diqqət yetirirlər.<br>• Güc – hər bir tərəfin daha böyük güzəştlər əldə etmək qabiliyyəti ilə müəyyən edilir.<br>• Tərəflər münaqişəni müəyyən olunmuş bir qalibin və məğlubun olması ilə səciyyələndirir.<br>• Məğlub olanlar, adətən, məyusluq hiss edir və bu da münaqişənin mümkünlüyünü artırır.<br>• Bütün tərəflər özləri üçün vacib ola biləcək şeylərdən imtina etməyə məcbur edilə bilər.<br>• Münasibətlərin pisləşmə və ya durğunlaşma ehtimalı var.<br>• Proses çox vaxt aparır. |



Rəqabət yanaşmalarının alternativi əməkdaşlıq yanaşmalarıdır ki, burada tərəflər münaqişəni təkbaşına həll edə bilməyəcəklərini və həll yollarını tapmaq üçün "rəqibləri" ilə birlikdə işləməli olduqlarını qəbul edirlər. Bu proseslər bəzən daha çox vaxt aparan və çətin ola bilər, lakin, ümumiyyətlə, uzunmüddətli perspektivdə bütün tərəflərə fayda verəcəkdir. Münaqişələrin idarə edilməsi prosesində əməkdaşlıq yanaşmasının rəqabətli yanaşmaya nisbətdə üstünlükləri aşağıdakı cədvəldə ümumən təsvir olunub.

| **Münaqişənin idarə olunması və sona çatdırılması üzrə<br>Rəqabət yanaşmalarına qarşı Əməkdaşlıq yanaşmaları** | |
|---|---|
| Rəqabətli yanaşmalar aşağıdakılar ilə xarakterizə olunur: | Əməkdaşlıq yanaşmaları aşağıdakılar ilə xarakterizə olunur: |
| • Sıfır-cəm qazancları. Başqa sözlə, A tərəfinin qazandığını B tərəfi itirir. *A tərəfinin qazancları – B tərəfinin itkiləri = 0.*<br>• Tərəflər bir-birinə qarşı işləyirlər. Tərəflər bir-birinə qarşı çalışarkən daha çox resurs səfərbər edirlər və bu da hər iki tərəf üçün münaqişənin xərclərini artırır. | • Müsbət-cəm qazancları. Tərəflər çalışır ki, hər kəs danışıqlar yolu ilə əldə olunmuş həllərdən faydalansın.<br>• Tərəflər problemləri ortaq şəkildə həll etmək üçün birlikdə çalışır. Tərəflər bir-birinə zərər yetirmək əvəzinə problemlərə diqqət yetirməklə çox vaxt hər kəsi razı salacaq daha yaradıcı həll yolları tapa bilərlər. |

| | |
|---|---|
| • Qısamüddətli həllər. Bir tərəfin üstünlük təşkil etməsi münaqişənin bitməsi anlamına gəlmir. Məğlub olan tərəf çox zaman öz məqsədlərinə çatmağın və rəqiblərini sarsıtmağın yollarını axtarmağa davam edir.<br>• Rəqabət prosesi çox vaxt tərəflər arasındakı münasibətlərin pisləşməsi ilə nəticələnir. Narazılıqlara toxunulmur və tərəflər bir-birilərini öyrənməyə və ya güvənə əsaslanan münasibətlər qurmağa yanaşmırlar.<br>• Bütün tərəflər itkiyə məruz qalır. "Müharibədə heç kim qalib gəlmir" deyimi tamamilə doğru ola bilər. | • Yüksəksəviyyəli kommunikasiya. Tərəflərin problemləri əməkdaşlıq səviyyəsində həll etməsi üçün açıq və mötəbər kommunikasiya kanallarının olması lazımdır. Bu, həmçinin gələcəkdə münaqişələrin effektiv idarə olunmasına yol aça bilər.<br>• Etimadın artırılması və münasibətlərin yaxşılaşdırılması. Bu, gələcəkdə ortaya çıxa biləcək münaqişələri həll etməkdə tərəflərə uzunmüddətli fayda verə bilər. |

Jurnalistlərin bu fərqli yanaşmaları müəyyən edə bilməsi və onların mümkün nəticələrini anlaya bilməsi vacibdir, çünki bu bizə tərəfləri öz hərəkətlərinin nəticələri barədə düşündürməyə vadar edəcək suallar verməyə köməklik edir. Məsələn, bir tərəfin sadəcə geri çəkilməklə münaqişədən yayınmağa çalışması aşkardırsa, insanlara bu yanaşmanın potensial nəticələrini düşünməyə sövq edəcək suallar ünvanlaya bilərik. Jurnalistlər aşağıdakı sualları verə bilər.

- Görünür ki, qarşıdurmadan yayınmaq üçün güzəştə gedirsiniz. Bunu indi etmək istəyində ola bilərsiniz, amma gələcəkdə nəticəni ədalətli hesab edəcəksinizmi? Etməyəcəksinizsə, yenidən baş qaldıracaq münaqişə üçün bu nə məna kəsb edə bilər?
- Əmin ola bilərsinizmi ki, indi bu güzəştləri etdikdən sonra gələcəkdə sizdən daha çox güzəştə getməyiniz istənməyəcək?
- Bu məsələyə yanaşma tərziniz indiki tərəflə gələcək münaqişələri həll etmək potensialınıza necə təsir edəcək?

Fərqli yanaşmaların hamısı üçün bu şəkildə suallar hazırlamaq mümkündür.

## 2.7. Münaqişələri konstruktiv həll etmək üçün tərəflər nə etməlidir?

Əgər münaqişə tərəfləri həll yolları axtarmaqda əməkdaşlıq edə biləcəklərsə, bunun mümkün olması üçün bir sıra şərtlər mövcud olmalıdır. Bunları bu bölmədə qısaca müzakirə edirik, üçüncü hissədə isə jurnalistlərin bu şərtlərin yaradılmasına necə töhfə verə biləcəyini araşdırırıq. Lazım olan əsas şərtlərdən bəziləri aşağıda verilib. Tərəflər:

- ehtiyacları, dəyərləri və maraqları haqqında bir-biri ilə ünsiyyət qura bilməlidir. Onlar, həmçinin öz hissləri və duyğuları haqqında danışmağı bacarmalıdır.
- özləri üçün mühüm olan məsələləri müəyyənləşdirməli və münaqişədə iştirak edən digər tərəflər üçün ən vacib olan məsələləri öyrənə bilməlidir.
- yanlış təsəvvürləri aydınlaşdırmalıdır. Tərəflər öz rəqibləri və onların niyyətləri haqqında müəyyən inanclara malik olurlar və yanlış düşündükləri zaman bu fikirlərə düzəliş etməyi bacarmalıdırlar.
- əsaslı qərarlar qəbul etmək üçün lazım olan məlumatlarla təmin olunmalıdır. Tərəflər heç də həmişə fəaliyyət göstərdikləri hüquqi və faktiki şəraiti ölçə bilmirlər və fərqlilikləri anlamaq üçün məlumata çıxış əldə etmək ehtiyacı duyurlar.
- rəqibləri ilə bərabər əsasda və ya ən azından ədalətli şərtlərdə danışa bilməlidir. Güc fərqləri çox vaxt zəif görünən tərəflərin öz hüquqlarını müdafiə etmələrini çətinləşdirir. Belə halda, daha güclü qrupların onlara məhəl qoymaması ehtimalı var.
- münaqişələrin həll olunmasının müxtəlif yolları haqqında maarifləndirilməlidir.

- münaqişənin həll yolları haqqında yaradıcı düşünməlidir. Tərəflərin qarşısında bir çox seçim varsa, zorakılığa qarşı müqavimət göstərmək və hər kəsi qane edəcək nəticələri seçmək ehtimalı daha yüksəkdir.
- digər tərəflərin sui-istifadəsindən qorunmalıdır. Tərəflər alçaldıldıqlarını və ya qorxudulduqlarını hiss edirlərsə, qarşılıqlı qaneedici həllər tapmaq perspektivləri az olur.

Yadda saxlamaq vacibdir ki, təkcə liderlərin bir-biri ilə münasibət qura bilməsı kifayət deyil. Uzunmüddətli perspektivdə onların tərəfdarları da digər qrupların üzvləri ilə dinc şəraitdə yaşaya bilməlidir. Münaqişə nəticəsində fərqli tərəflərə ayrılmış insanlar üçün yenidən bir-birinə güvənməyi və bir-birilərinin mövcudluğunu qəbul etməyi öyrənmək xeyli vaxt apara bilər. Münaqişələrin həllinə yuxarıdan aşağıya doğru yanaşmalar yalnız bəzi problemləri həll edəcək; sadə xalq təbəqəsindən olan insanların bir-biri ilə münasibət qurmaları və keçmiş narazılıqlarla üzləşməyin yollarını tapmaları üçün də şərait yaradılmalıdır. Məhz bu baxımdan jurnalistlər xüsusilə vacib töhfə verə bilərlər.

| **İkinci hissəyə dair qeydlər:** |
| --- |
| |
| |
| |
| |

# Üçüncü hissə:
# Jurnalist münaqişəyə necə təsir göstərə bilər?

**DÜŞÜNCƏ ANI 3:**

**Üçüncü hissədə jurnalistlərin münaqişənin həllinə verə biləcəyi konstruktiv töhfələri nəzərdən keçirin. Bu töhfələrin peşəkar jurnalistikanın prinsiplərinə zidd olduğunu düşünməyinizə hər hansı səbəb varmı? Sizcə, jurnalistlərin töhfə verə biləcəyi başqa yollar varmı?**

Münaqişə ilə bağlı müxtəlif nəzəriyyə və fikirləri müzakirə etməyimizdən artıq aydın olmalıdır ki, jurnalistlərin çatdırdıqları məlumatlar vasitəsilə konstruktiv töhfə verə bilməsi üçün bir sıra yollar mövcuddur. Üçüncü hissədə bu töhfələrdən bəzilərini daha ətraflı araşdırırıq və qeyd edirik ki, bu davranışların heç biri ənənəvi peşəkar jurnalistika standartları ilə ziddiyyət təşkil etmir. Jurnalistlərdən tərəf tutmaq tələb olunmur, ancaq jurnalistlərdən işlərinin münaqişələrə təsirini nəzərə almaları xahiş olunur. Jurnalistlərdən tərəflərə necə davranmaq lazım olduğunu söyləmək tələb olunmur, amma tərəflərə öz davranışlarına görə məsuliyyət daşıdıqlarını bildirmək təklif edilir. Onlar xüsusi strategiyalar və ya həll yolları irəli sürmürlər, lakin tərəflərdən öz seçimlərinin potensial təsirini nəzərə almalarını xahiş edirlər. Jurnalistlərdən ədalət və dəqiqlik ideallarından əl çəkmələri istənilmir, amma daha dərinə getməyimiz və müəyyən edilmiş bir çox məlumatlandırma ənənələrindən kənara çıxmağımız tələb edilir. Jurnalistlərdən onlara söylənilənləri olduğu kimi qəbul etməmələri, münaqişənin və tərəflərin hərəkətlərinin əsl səbəblərini ortaya çıxarmaq üçün davamlı olaraq daha dərindən araşdırma aparmaları xahiş olunur. Jurnalistlərdən, həmçinin adi mənbələrdən kənara çıxaraq, çox zaman gözardı edilən və vacib hekayələri olan digər şəxsləri də axtarmaları tələb olunur. Qeyd olunmalıdır ki, jurnalistlərin verə biləcəyi töhfələr hadisədən və onun harada baş verməsindən asılı olaraq dəyişəcəkdir. Cəbhə xəttində zorakılıq hadisələrini işıqlandıran reportyorların ən vacib vəzifələri – baş verənləri çatdırmaqdan və zorakılığın bütün tərəflərin döyüşçülərinə və mülki insanlarına necə təsir etdiyini vicdanlı və dəqiq şəkildə izah etməkdən ibarətdir.[1] Haqqında məlumat verdiyimiz münaqişələr cəbhə xəttindən uzaqda olduqda və ya qeyri-sabit olmadıqda, aşağıda təsvir olunan vəzifələri təmin etmək bizim üçün daha uyğun olar.

Üçüncü hissədə yaxşı jurnalistikanın konstruktiv töhfə verə biləcəyi üsullarını ələ alırıq. Daha sonra, işimizdə münaqişəni dərinləşdirə biləcək məqamları araşdırırıq və sonda, çatdırdığımız məlumatların münaqişəyə həssas olub-olmadığını müəyyən etməyə kömək edəcək bəzi sualları nəzərdən keçirərək bölməni yekunlaşdırırıq.

[1] Qeyd: Şiddətli bir qarşıdurma zamanı hekayənin bütün tərəflərini əhatə etməyimiz həmişə mümkün olmaya bilər. Bəzən münaqişənin təsirinə məruz qalmış bütün ərazilərə daxil olmaq bizim üçün sadəcə təhlükəlidir. Məsələn, müharibə vaxtı bir tərəfdən olan jurnalistlər digər tərəfdə baş verənləri müşahidə etmək üçün sərhədi keçə bilməyə bilər. Bu hallarda, baş verənlərin hərtərəfli təsvirini tamaşaçılara çatdıra bilməyəcəyimizi hekayələrimizdə açıq şəkildə bildirmək bizim üçün vacibdir. Eynilə, təhlükəsizlik orqanları müəyyən təşkilatları işıqlandırmağımıza və ya müəyyən insanlarla danışmağımıza mane ola bilər və bu hallarda, izləyicilərimizin bunu bilmələri vacibdir ki, aldıqları məlumatlarda boşluqlar olduğunu başa düşsünlər.

## 3.1. Yaxşı jurnalistika münaqişə həllinə necə töhfə verə bilər?

Münaqişənin sülh yolu ilə idarə olunmasına və həllinə imkan verən şəraitin yaradılması istiqamətində jurnalistin töhfə verə biləcəyi müxtəlif yollar aşağıdakı kimidir:

- **Tərəflər arasında kommunikasiyanı təmin etmək**

Jurnalistlər münaqişə tərəflərinin öz narahatlıqlarını qarşılıqlı olaraq ifadə edə bilməsi üçün bərabər imkanlar təqdim edə bilər. Jurnalistlər bütün tərəflərə öz ehtiyacları barədə danışmaq imkanı verməklə, insanların bir-birinə mühüm mesajlar çatdırmalarına şərait yaradırlar. Bu o demək deyil ki, tərəflər mediadan istifadə etməklə bir-birini təhdid və təhqir etməlidir; əksinə, əsas mahiyyət, aydınlaşdırıcı suallar verərək münaqişələrin həll edilməsi istiqamətində bir tərəfin digərinə çatdırmaq istədiyi məqamları ortaya çıxarmaqdır.

- **Tərəfləri dəqiq məlumatlarla təmin etmək**

Münaqişə tərəflərinin – həm liderlərinin, həm də onların tərəfdarlarının müdrik qərarlar qəbul etməsi üçün lazım olan məlumatlarla təmin olunmasında jurnalistlər mühüm rol oynaya bilər. İnformasiya boşluqlarını müəyyən edə və bu ehtiyacları aradan qaldıra bilsək, münaqişələrin lüzumsuz şəkildə şiddətlənməsi ehtimalını azaltmağa əhəmiyyətli dərəcədə töhfə verə bilərik. Öz tərəfdarlarına yalan məlumat verən liderlər tərəfindən insanların manipulyasiya edilməməsinə kömək edə bilərik. Burada *aktiv dəqiqlik* prinsipi vacibdir. Bu o deməkdir ki, biz insanların irəli sürdüyü iddiaları asanlıqla qəbul etmirik, həm də onların doğru olub-olmadığını yoxlamaq üçün əlimizdən gələni edirik.

- **İnsanları münaqişə idarəetməsinin müxtəlif yolları barədə maarifləndirmək**

Jurnalistlər insanları münaqişələrin həllinin müxtəlif yolları haqqında maarifləndirə bilər. Bu, insanları əsasən münaqişələrin idarə və həll edilməsi üzrə təcrübələr haqqında məlumatla təmin etmək deməkdir. Özümüz bu sahələrdə mütəxəssis olmaya bilərik, amma təcrübəsi olan insanlara hər zaman müraciət edə bilərik. Həmçinin digər icmalar haqqında məlumatlar da təqdim edə və münaqişələri necə həll etdiklərini göstərə bilərik. Bu, insanların münaqişələrin sülh yolu ilə həll edilə biləcəyini görmələrinə və öz şərtlərinə uyğunlaşdıra biləcəkləri ideyalarla təmin olunmalarına kömək edə bilər.

- **Daha zəif tərəfləri gücləndirmək**

Jurnalistlər daha zəif tərəflərin sözünü deməsi və eşidilməsi üçün imkanlarını artıra bilər. İnsanlara mediada platforma verməklə, hətta təcrid edilmiş qruplara narahat olduqları məsələləri dinc yolla qaldırma imkanını təmin edə bilərik. Münaqişələri işıqlandırarkən, kənarda qalmış səslərin nəzərə alınmasını və bu insanların danışmaq imkanının olmasını istəyirik. Bu o demək deyil ki, prosesə müdaxilə etməliyik, əksinə, ədalətli və əhatəli işıqlandırmanı təmin etmək istəyirik.

- **Yanlış təsəvvürləri aydınlaşdırmaq**

Jurnalistlər yanlış təsəvvürləri aydınlaşdırmaqla gərginliyi azaltmağa kömək edə bilərlər. Kənar müşahidəçilər olaraq, biz çox zaman ayırd edə bilirik ki, tərəflər nə zaman öz rəqiblərinin onlara qarşı münasibətləri və rəqiblərinin ümumi məqsəd və vəzifələri haqqında yanlış təsəvvürə malikdir. İnsanların, həqiqətən, necə hiss etdiklərini və əsl niyyətlərini izah edən hekayələr hazırlayaraq qruplar arasındakı gərginliyi azaltmağa kömək edə bilərik.

- **Münaqişəni təhlil etmək**

Münaqişə haqqında biliklərimizə əsaslanaraq və bu sahədə təcrübəsi olan insanlarla ünsiyyət qurараq münaqişələrin təhlilini təmin edə bilərik ki, bu da insanlara nəyin və niyə baş verdiyini anlamağa kömək edə bilər. Başqa yerlərdə baş verən münaqişələr arasında müqayisə apararaq, insanlara oxşarlıqları görməyə və bu hadisələrdən ibrət dərslərini götürməyə imkan yarada bilərik. İnsanlara müəyyən yanaşmaların mümkün nəticələrini və başqalarını nəzərə almağın faydalarını anlamağa kömək edə bilərik.

Münaqişə üçbucağı




*Conflict Triangle. (Johan Galtung, 1994: 24)*

ABC Münaqişə Üçbucağı xəbər mediası ilə bağlı ən çox yayılmış şikayətlərdən biri haqqında düşünməyi təşviq edir: belə ki, insanların nə etdiyinə (davranışlarına) diqqət yetiririk, lakin həmin hərəkətə nəyin sövq etdiyini izah etmirik. Bu model göstərir ki, davranışlar iki şeyin nəticəsidir: qrupların bir-birinə münasibəti və insanların yaşadıqları sosial və siyasi vəziyyət. Əsas diqqəti davranışlara – üzdə olan hərəkətlərə yönəldən media reallıqda baş verənlərin təhrif olunmuş mənzərəsini təqdim edir. Münaqişəyə həssas yanaşmaqla məlumatların çatdırılmasının məqsədi – münaqişənin niyə başladığı və müxtəlif qruplar arasındakı münasibətlərdə nələrin baş verməsi kimi mühüm suallara daha əhatəli cavab tapmaqdır.



- **Əsas ehtiyac və maraqları müəyyən etməyə kömək etmək**

Tərəflər öz mövqelərini ictimailəşdirməyə meyillidirlər, lakin bu mövqelərin kökündə duran maraqları açıq şəkildə ifadə etməkdən çəkinirlər. Rəqiblərinin müəyyən mövqeləri niyə tutduqlarını bilmədən, hər bir tərəf digərini mövqeyindən uzaqlaşdırmağa çalışır və bir-birilə mübarizə halında qapanıb qalırlar. Tərəflər bir-birinin maraqlarını öyrənə bilsələr, digərilə uzlaşmaq və ya güzəştə getmək yollarının olub-olmadığını daha yaxşı qiymətləndirə biləcəklər. Aydınlaşdırıcı suallar verən məlumatlı jurnalistlər bu maraqların aşkarlanmasında rol oynaya bilərlər.

- **Tərəflərə narazılıqlarını ifadə etmək imkanı vermək**

Tərəflərin məyusluq hissi artdıqda, jurnalistlər onlara öz hisslərini media vasitəsilə ifadə etmək imkanı yaradaraq, emosional çıxışlarını təmin edə bilərlər. Bu, tərəflərə başqalarına təhqir və hücum etmək üçün mediadan istifadə etmək hüququ vermir, əksinə, məyusluqlarını və qorxularını ifadə etmək üçün imkan yaradır. İnsanlar emosiyalarını media vasitəsilə ifadə edə bilməzlərsə, o zaman onların bunu başqa daha az dinc yollarla etməsi ehtimalı artır.

## The Conflict Onion

The Conflict Onion provides us with a simple way of thinking about what different parties hope to gain during conflicts. The model shows that groups in conflict will express a range of demands about what they want and how their opponents should behave. These demands reflect the parties' outward positions and are represented by the external layer of the onion. To find out what groups really desire, journalists must peel away the onion's layers to uncover their deeper interests (what they really want) and why these interests are important to them (their needs). By refusing to simply accept the claims that parties make and by asking probing questions journalists can find out more about a party's needs and interests.






- **Həll yolları üçün axtarışı genişləndirmək**

Tərəflərə münaqişələri necə həll edəcəklərini söyləmək bizim işimiz deyil, ancaq nəzərdən keçirmədikləri mümkün həll yollarını müəyyənləşdirmələrinə kömək edə bilərik. Bütün əsas maraqlı tərəflərlə təmasda olan qərəzsiz müşahidəçilər olaraq, biz bəzən başqalarının nəzərə almadığı həll yollarını görə bilərik. Biz heç vaxt müəyyən bir həll yolunun tərəfdarı olmayacağıq, ancaq jurnalistin tərəflərə mümkün həll yolunu təqdim edərək, bu istiqamətdə fikirlərini soruşmağının ziyanı yoxdur.

- **Sülh tərəfdarlarına imkan yaratmaq**

Jurnalistlər sülhməramlıların eşidilməsi üçün şərait yaratmağa kömək edə bilər. Adətən, münaqişə zamanlarında ən çox sözünü deyənlər ən radikal və döyüş ruhlu insanlar olur. Bu insanlar işıqlandırılmalıdır, lakin biz, həmçinin çalışmalıyıq ki, hər kəsi qane edəcək həll yolları tapmaqda marağı olan şəxslər də danışmaq imkanı əldə etsin. Bu cədvəl tərcümə olunmayıb azərbaycancaya!

- **Şayiələrə və spekulyasiyalara qarşı mübarizə aparmaq**

Jurnalistlər şayiələrə və spekulyasiyalara qarşı mübarizəyə dəstək verməklə münaqişələrin şiddətlənməsi təhlükəsini azalda bilərlər. Həssas insanlar, həqiqət olmasa belə, adətən, ən pis ehtimalları ağıllarına gətirirlər və bu ehtimallara inanc da zorakı hərəkətlərə çevrilə bilər. Şayiələri izləmək və həqiqəti dərc etməklə, insanların qorxularını azaldaraq fərq yarada bilərik. Saxta xəbərlərlə mübarizə bizim üçün vacib rol oynayır. İnsanların etibarlı, güvənilən məlumat üçün müraciət edə biləcəyi bir məkan təmin etməliyik.

- **İnsan hüquqları pozuntularını ifşa etmək**

Tərəflərdən biri və ya birdən çoxu digərinə qarşı hücumlarda iştirak etdiyi təqdirdə, tərəflər danışıqlarla irəliləyiş əldə edə bilməyəcəklər. Tərəflərin davranışlarını izləmək və zorakılıq hallarını ifşa etməklə jurnalistlər hücumların məhdudlaşdırılmasında rol oynaya bilərlər. Ümumiyyətlə, tərəflər hücum iddiaları ilə gündəmə gəlməkdən çəkinirlər və jurnalistlərin hadisələri izlədiyini bilmək zorakılıqdan istifadənin məhdudlaşdırılmasına kömək edə bilər. Pozuntu halları haqqında məlumatlılığı artırmaqla və səlahiyyətli orqanların necə reaksiya verdiyini izləməklə jurnalistlər hücumların cəzasız qalmamasına kömək edə bilərlər.

Jurnalistlərin münaqişənin həllinə verə biləcəyi yuxarıda sadalanmış töhfələr ədalətli, dəqiq, dərin və əhatəli məlumatları çatdırmağa mane olmamalıdır, əksinə, bu yollarla töhfə verə biləcəyimizi düşünmək bizi daha çox çalışmağa təşviq etməlidir. Ənənəvi olaraq vəzifəmizin məlumatlandırmaq, maarifləndirmək və əyləndirmək olduğu deyilir, ancaq jurnalistlərin bundan daha çox iş gördükləri aydındır. İctimaiyyətə çatdırdığımız məlumatlar fərq yarada və nəticədə həyatları xilas edə bilər.

## 3.2. Jurnalistlər münaqişəni necə dərinləşdirə bilər?

Özünü jurnalist hesab edən bəzi insanların münaqişəni şiddətləndirməyə, müharibəni və soyqırımını təbliğ etməyə fəal şəkildə cəhd etdikləri hallar olub. Bu bölmədə onlara toxunulmayacaq, əksinə, ən yaxşı niyyətli jurnalistlərin belə münaqişəni təbliğ edə biləcəyi bir neçə məqama diqqət yetirəcəyik. Aşağıda çəkinməli olduğumuz bəzi davranışlar verilib.

- **Münaqişələri həddən artıq sadələşdirmək**

Münaqişə, artıq qeyd etdiyimiz kimi, demək olar ki, həmişə göründüyündən daha mürəkkəb olur. Münaqişələrin yalnız iki tərəfdən ibarət olması və eləcə də, hər bir tərəfin üzvlərinin münaqişə ilə bağlı eyni fikirdə olması çox nadir hallarda olur. Məsələn, bəziləri müharibəyə üstünlük verə bilər, digərləri isə sülh tərəfdarı ola bilər. Bizim üçün vacib olan – iştirak edən bütün maraqlı tərəfləri müəyyən etmək və mübarizə aparan qrupların daxilində də müxtəlif fikirlərin olduğunu göstərməkdir. Bu mürəkkəblikləri göstərməsək, münaqişənin olduqca təhrif olunmuş mənzərəsini ortaya qoymuş olarıq. Həmçinin münaqişələrin heç nədən başlamadığını göstərmək də mühümdür. Hadisələrin səbəbini dəqiq bilmək istəyiriksə, əksər hallarda, keçmişdə baş verənləri anlamalı və qəbul etməliyik. Bax: *Şəkil. Münaqişə üçbucağı.*

- **Azlıqlara və yerli icmalara məhəl qoymamaq**

Liderləri və ya siyasi tərəfləri geniş işıqlandırmaq və icma üzvlərini tamamilə gözardı etmək adi haldır. Ancaq bu insanların münaqişə və onun idarə olunması ilə bağlı çox fərqli fikirləri ola bilər. Münaqişəyə həssas olan jurnalistlər yalnız liderlərdən və nüfuzlu insanlardan danışmır; bizi münaqişənin təsirinə məruz qalan hər kəsin fikri maraqlandırır.

- **Sözlərdən qeyri-həssas şəkildə istifadə etmək**

Münaqişəni təsvir edərkən istifadə etdiyimiz sözlər mühümdür, bu, insanların bizi necə anlamalarına və hazırladığımız məlumatlara necə reaksiya verməlárinə əhəmiyyətli təsir göstərə bilər. Bir qrupun üzvləri haqqında həddindən artıq müsbət ifadələr işlətmək, digər qrupun üzvləri haqqında isə alçaldıcı ifadələr sərf etmək insanlarda düşmənçilik hissi yarada və auditoriyanın itirilməsi ilə nəticələnə bilər. Bir qrupun üzvü qərəzli olduğumuzu hiss etdikdə, bizi gözardı edə bilər və bu, münaqişəyə verə biləcəyimiz konstruktiv töhfələri məhdudlaşdıra bilər. Neytral terminlər axtarmalıyıq. Üçüncü hissənin sonunda bax: *Dilin düzgün istifadəsinə dair qeyd*.

- **Təbliğatı təşviq etmək**

Münaqişə vaxtlarında dəstək qazanmaq və insanları rəqiblər haqqında mənfi düşünməyə vadar etmək üçün tərəflərin təbliğata əl atması adi haldır. Spekulyasiya üçün platforma təmin etmək heç vaxt bizim vəzifəmiz olmayıb. Yalan iddialar hər zaman sorğulanmalı və etiraz edilməlidir. Liderlərin istifadə etdiyi dili təhlil etmədən qəbul etməməyimiz vacibdir. Məsələn, milli liderlər başqa ölkədən olan əsgərləri "düşmən terrorçuları" adlandıra bilər, biz jurnalistlər isə onları (filan ölkədən olan) "əsgər" kimi təqdim edəcəyik.

- **Gün işığı jurnalistikasına üstünlük vermək**

Gün işığı jurnalistikası yalnız müsbət cəhətlər üzərində cəmləşmiş reportaj yanaşmasını bildirir. Bəzən bunun səbəbi o ola bilər ki, insanlar sərt reallıqlar barədə məlumat verməyin münaqişəyə səbəb olacağından qorxurlar. Münaqişəni işıqlandıran jurnalistlər isə dərk edir ki, xoşagəlməz halları gizlətmək şayiələrin daha da artmasına səbəb olur. İnsanların baş verənlər haqqında spekulyasiya etməsinə imkan verməkdənsə, hadisələrin düzgün təsvirini təqdim etməyimiz daha yaxşıdır, əks halda faktların təhrif olunması qaçılmazdır. Çünki insanlar çox vaxt münaqişələr zamanı həyati qərarlar verməli olur və bunun üçün doğru məlumatlara ehtiyac duyurlar.



- **Zorakılığı vurğulamaq**

Dəhşətləri sərhədsiz işıqlandırmaqdan uzaq durmaqla yanaşı, zorakılığı detallı təsvir etməkdən də qaçınmalıyıq. İnsanların əhvalatlarını işıqlandırmaq vacibdir, lakin onların iztirablarını həddindən artıq təfərrüatla təsvir etməyə ehtiyac yoxdur. Bu cür xəbərlər qurbanların ailələrinə və yaxınlarına əlavə əzab verə bilər. Biz, həmçinin hərbi texnikanın dağıdıcı qabiliyyətini təriflməkdən çəkinməliyik. Texnologiyanın necə istifadə edildiyini bildirməliyik, ancaq hərbi əməliyyatları tərənnüm etməklə heç bir qazanc əldə edə bilmərik.

- **Hekayələri sensasiya ilə təqdim etmək**

Hekayələrimizi tamaşaçıları və oxucuları cəlb edəcək şəkildə təqdim etmək vacibdir, lakin bu o demək deyil ki, münaqişələri həddən artıq dramatikləşdirmək istəyirik. Sarsıdıcı başlıqlarla və maraqlı girişlərlə hekayələr yazmaq dinləyiciləri cəlb edə bilər, ancaq biz, bunların münaqişəyə necə təsir edəcəyini də bilməliyik. Sensasiyalı başlıqlar lüzumsuz qorxu, nifrət və qəzəbə səbəb ola bilər ki, bu da münaqişənin şiddətlənməsinə gətirib çıxarar.

- **Ümumi ifadələrdən istifadə etmək**

Biz münaqişənin qısa təsvirini vermək üçün tez-tez ümumiləşdirilmiş ifadələrdən istifadə edirik, lakin bunlar çox zaman münaqişənin inkişafına və həddən artıq sadələşdirilməsinə səbəb olmaqla yanaşı, baş verənləri təhrif edə və məzmundan çıxara bilər. "Dini müharibələr", "xristian-müsəlman qarşıdurmaları", "ağlar və qaralar" arasında münaqişə kimi ifadələr baş verənlərin mahiyyətini heç vaxt tam şəkildə əhatə edə bilməz. Bu ifadələr başqalarına elə görünə bilər ki, guya müxtəlif qruplardan olan insanlar arasında anadangəlmə ziddiyyət var və sanki bu "ziddiyyət" onların adlarını bir yerdə çəkməklə reallıq kimi təqdim oluna bilər.

## 3.3. Çatdırdığımız məlumatlar münaqişələrə həssasdırmı?

Aşağıdakı suallar münaqişəyə dair məlumatlara həssaslıqla yanaşıb-yanaşmadığımıza qərar verməyə kömək edə bilər.

- Münaqişəni necə əks etdirməyimiz izləyicilərimizə onun səbəblərini və həlli üçün nələrin tələb olunduğunu daha dərindən anlamağa kömək edirmi?
- Tərəflərə bu münaqişənin həlli üçün nələrin tələb olunması barədə fikirlərini bölüşmək imkanı verərkən ədalətli davranırıqmı?
- Münaqişəni işıqlandırma tərzimiz insanların qorxu və çaxnaşma yaşamasına, nəticədə zorakılıq etməsinə səbəb olurmu?

- Münaqişəni işıqlandırma tərzimiz qruplar arasında qəzəb və nifrəti təbliğ edirmi? Fərqli qrupları qəzəbləndirəcək və təhqir edəcək üslubdan istifadə edirikmi? Özümüz də bilmədən təhqiramiz ifadələr sərf edə bilərikmi?
- Münaqişənin həllinə gəldikdə, insanlara zorakılığın alternativlərini görməyə kömək edirikmi?
- Sülhü təşviq etmək istəyən insanlara öz təcrübə və biliklərini bölüşmək üçün imkan yaradırıqmı?

Dördüncü hissədə jurnalistlərin münaqişələri konstruktiv şəkildə işıqlandırması üçün bir neçə praktiki addımı araşdıracağıq.

## Dilin düzgün istifadəsinə dair bəzi qeydlər

***Münaqişə haqqında məlumat verdiyimiz zaman dildən düzgün şəkildə istifadə etmək vacibdir. Sözlər özündə duyğuları ehtiva edir və onların yersiz istifadəsi emosiyaların yüksəlməsinə və qəzəbə səbəb ola bilər. Nəticədə isə bizə olan etibar zədələnə bilər. Aşağıda həssas yanaşma tələb edən sözlərin bir neçə kateqoriyası verilib.***

**Mühakiməedici terminlər:**

Münaqişələr zamanı işlənən bir çox terminlər onlardan istifadə edən şəxsin hadisə və ya onun iştirakçıları haqqında mühakimə yürütdüyünü bildirir. Biz jurnalist olaraq hadisələri təsvir edərkən bu terminlərdən istifadə etməkdən çəkinirik, ancaq belə ifadələr informasiya mənbələri tərəfindən istifadə olunarsa, əlbəttə, onlardan sitat gətirə bilərik. Bizim vəzifəmiz hadisələrdə gördüklərimizi çatdırmaq və auditoriyanın öz qərarlarını verməsinə imkan yaratmaqdır. Bu mühakiməedici terminlərin bəzilərinə aşağıdakılar daxildir:

- **Vəhşiliklər:** Bu söz müdafiəsiz insanlara qarşı törədilən qəddar zorakılığın müxtəlif formalarını ifadə etmək üçün “çətir termin” kimi istifadə olunur. Bu əməlləri törədənlərin hərəkətləri, adətən, qəsdən işgəncə və alçaldıcı hərəkətlərdən ibarət olur.
- **Soyqırımı:** Bu termin sistematik zorakılıq yolu ilə milli, etnik, irqi və ya dini qrupu tamamilə və ya qismən qəsdən məhv etmək cəhdini bildirir. Bu termin heç vaxt yersiz istifadə edilməməlidir, çünki o, minlərlə, hətta milyonlarla insanı məhv etmək üçün nəzərdə tutulmuş genişmiqyaslı bir hərəkəti ehtiva edir. Jurnalist materialında bu termindən istifadə edəcəksə, aktı kimin soyqırımı adlandırdığını aydın göstərməlidir, çünki jurnalist özü hadisəni qiymətləndirə bilməz.
- **Etnik təmizləmə:** Müəyyən etnik qrupdan olan mülki şəxsləri konkret bir ərazidən silmək məqsədilə onlara qarşı edilən müntəzəm hücumları nəzərdə tutur. Bura həm kütləvi qətl, həm də ərazidən məcburi köçürülmə halları aiddir.
- **İnsanlıq əleyhinə cinayətlər:** Kütləvi qətl, köləlik, işgəncə, zorlama və zorla yoxa çıxarma kimi üsullarla mülki əhaliyə qarşı qəsdən sistemli hücum siyasəti nəzərdə tutulur.
- **Qətliam/kütləvi qırğın**: Silahsız və müdafiəsiz insanların öldürülməsi.
- **Terrorçu:** Müxtəlif beynəlxalq qurum və təşkilatlar (BMT TŞ, FTB, İƏİT, ABŞ Dövlət Dep. və s.) terrorçunun fərqli təriflərini versə də, bu günədək vahid qəbul edilmiş versiyası yoxdur. Mənbəni göstərə bilmədiyimiz hallarda bu sözü istifadə etməkdən çəkinməliyik.
- **FTB-nin terrora verdiyi tərif:** Siyasi və ya sosial məqsədlərə nail olmaq üçün hökuməti, mülki əhalini və ya onun hər hansı bir hissəsini qorxutmaq və ya məcbur etmək üçün insanlara və ya əmlaka qarşı gücdən və ya zorakılıqdan qanunsuz istifadə.

- **Mülki əhaliyə dəymiş ziyan.** Bu ifadə, hərbi əməliyyatlar, xüsusən də, hava bombardmanları və raket zərbələri zamanı mülki əhalinin öldürülməsi və ya mülki əmlakın və infrastrukturun məhv edilməsi barədə hökumətlər tərəfindən efvemizm kimi istifadə olunur.

**Narahatedici terminlər:**

Jurnalistlərin başqalarını təsvir etmək üçün istifadə etdiyi bir çox termin var ki, həmin qrupların üzvləri üçün qəbuledilməz ola bilər. İstifadə etdiyimiz terminlər barədə, eləcə də, onlar bizim haqqımızda istifadə edilsəydi, necə reaksiya verəcəyimiz barədə diqqətlə düşünməliyik. İstifadəsinə diqqət etməli olduğumuz bəzi terminlər aşağıdakılardır.

- **Fanatik** və **ekstremist** terminləri isim və ya sifət kimi istifadə edildikdə təsvir olunan insanların məntiqsiz bir motivasiya ilə idarə olunduğunu və aydın düşünmək üçün onlara etibar edilə bilməyəcəyini göstərir.
- Eynilə, bir qrup nümayişçini **güruh** kimi təsvir etmək o deməkdir ki, onlar düşünülməmiş hərəkət edən, idarə olunmayan insan kütləsinin bir hissəsidir.
- Münaqişələri öz şərhimizdə təsvir edərkən və ya bir mənbənin dediklərini qısaca nəql edərkən **“düşmən”** sözündən istifadə məqsədəuyğun deyil. Bu bizim tərəf tutduğumuzu göstərə bilər, baxmayaraq ki, tamamilə zəruri olduqda, başqalarından sitat gətirərkən bu sözdən istifadə edə bilərik.

**Sözləri dəqiqliklə istifadə etmək**

Münaqişənin aspektlərini təsvir etmək üçün istifadə olunan sözlərin çoxunun dəqiq mənası var və onları dəqiq istifadə etməyimiz bizim üçün vacibdir.

**Cəbhə xətti:** Bu, taktiki hərbi hissələrin bir-biri ilə savaşa girmək üçün düzüldüyü yerdir. Cəbhə xətti bir-birinə qarşı çıxan tərəflər arasında ayrılma nöqtəsini göstərir.

**Sərhəd** (Beynəlxalq): Bir ölkəni digərindən ayıran beynəlxalq səviyyədə razılaşdırılmış xətt.

**Bufer zonası:** münaqişədə olan qüvvələri ayıran neytral sahə. Əks qüvvələri ayırmaq üçün nəzərdə tutulmuş və hərbi texnikanın icazə verilmədiyi sahə. Həmçinin, demilitarizasiya zonası (DMZ) olaraq tanınır.

**Delimitasiya:** Siyasi ədəbiyyatda və beynəlxalq hüquqda qeyd olunduğu kimi, delimitasiya prosesi qonşu dövlətlərlə sərhəd xətlərinin müəyyən edilməsinin ilkin mərhələsidir. Delimitasiya prosesi zamanı bir qayda olaraq, genişmiqyaslı xəritələr üzərində relyef, hidroqrafiya, yaşayış məntəqələri ətraflı göstərilir. Bu proses yekunlaşdıqdan sonra dövlət sərhədi xətti ilə bağlı müqavilə imzalanır.

**Demarkasiya xətti:** Bu terminin bir neçə mənası var:

- hərbidə: sülh sazişi və ya hər hansı bir başqa razılaşma ilə daimi sərhədlər qurulana qədər döyüşən dövlətlərin ordularını müvəqqəti sülh dövründə ayıran xətt;
- məğlub dövlətin ərazisini işğal zonalarına bölən xətt;
- qonşu dövlətlər arasında mübahisə mövzusu olan ərazidə müvəqqəti olaraq qurulan xətt. Demarkasiya xətti müharibə edən tərəflər, işğal və ya münaqişə edən dövlətlər arasında xüsusi razılaşma ilə müəyyən edilir.

**Məcburi köçkün** – əsasən silahlı münaqişənin, ümumi zorakılıq hallarının, insan hüquqları pozuntularının və ya təbii və ya texnogen fəlakətlərin təsirləri nəticəsində və ya onlardan qurtulmaq üçün öz evlərindən və ya daimi yaşa-

yış yerlərindən qaçmağa və ya tərk etməyə məcbur qalmış və ya məcbur edilmiş, beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini keçməmiş şəxslər və ya şəxslər qrupu.

**Qaçqın** – müharibədən, təqibdən və ya təbii fəlakətdən xilas olmaq üçün ölkəsini tərk etmək məcburiyyətində qalmış şəxs.

| **Üçüncü hissəyə dair qeydlər:** |
| --- |
| |
| |
| |
| |

# Dördüncü hissə: Münaqişələri işıqlandırarkən veriləcək bəzi əsas suallar

## 4.1. Münaqişələri işıqlandırarkən nəzərə alınmalı ümumi suallar

Münaqişələr fərqli olsa da, demək olar ki, hər bir vəziyyətdə verə biləcəyimiz və münaqişəyə bir qədər aydınlıq gətirməyə kömək edəcək müəyyən suallar vardır. Bu suallar fərqli vəziyyətlərə uyğunlaşdırılmalı olsa da, bir sıra münaqişələrdə geniş tətbiq oluna bilər. Jurnalistlərin verə biləcəyi, yuxarıda göstərilən məsələlərin həllinə kömək edə biləcək suallar aşağıda verilmişdir.[1]

**DÜŞÜNCƏ ANI 4:**

**Bu suallar münaqişə və münaqişə jurnalistikası sahələrinin mütəxəssisləri tərəfindən irəli sürülmüşdür. Sizcə, burada təqdim olunanlardan əlavə, jurnalistlərin verməli olduğu başqa suallar varmı?**

- Münaqişə nə barədədir? Tərəflər kimlərdir və onların əsl məqsədləri nədir?
- Başqa hansı tərəflərin münaqişədə marağı var? Onların maraqları nələrdir? Onlar münaqişəni dərinləşdirirlər, yoxsa sülhə nail olunmasına kömək edirlər?
- Münaqişənin dərin kökləri nələrdir? Həll edilməli olan struktur balanssızlıqları varmı? Münaqişənin göstərilən səbəbləri ilə yanaşı, qruplar arasındakı çəkişməyə səbəb olan digər amillər varmı? Münaqişəyə səbəb olan tarixi hadisələr nələrdir?
- Bir tərəfin digərinə güc tətbiq etməsindən başqa, münaqişənin hansı əlavə nəticələri ola bilər? Tərəflərin həllə nail olması üçün nə lazımdır?
- Münaqişənin necə həll ediləcəyi ilə bağlı xüsusi yaradıcı və ya yeni fikirlər varmı? Bu cür fikirlər zorakılığın qarşısını ala biləcək qədər güclü ola bilərmi?
- Zorakılıq baş verərsə, nifrət, intiqam almaq arzusu və qürur hissi kimi görünməz nəticələrin sülh imkanlarına təsiri nə olacaq?
- Zorakılığın qarşısını almaq üçün kim çalışır? Münaqişənin nəticələri ilə bağlı onların düşüncələri nələrdir? Tərəflər bu fikirlərə necə cavab verəcək?
- Onlar hansı üsullardan istifadə edirlər və necə dəstəklənə bilərlər? Bu sülh tərəfdarlarına lazım olan dəstəyi kim verə bilər?
- Gələcəkdə münaqişənin yenidən baş vermə ehtimalını azaltmaq üçün nə etmək olar?

Bütün bu sualları bir hekayədə cavablandırmaq çətindir, amma materiallarımızın əhatəli olmasını istəyiriksə, münaqişənin gedişatında davamlı olaraq bu suallara cavab tapmağa çalışmalıyıq.

[1] Qaltunq Yohan. 1998. Yüksək yol, alçaq yol: Sülh jurnalistikası kursunun yaradılması. İkinci istiqamət, 7(4). Burdan əldə edə bilərsiniz: http://www.ccr.uct.ac.za/archive/two/7_4/p07_highroad_lowroad.html.

## 4.2. Sülh prosesində veriləcək suallar

Sülh prosesi və danışıqlar, bir qayda olaraq, istənilən münaqişədə dönüş nöqtəsini göstərir, lakin biz yadda saxlamalıyıq ki, onlar heç də münaqişənin sona çatdığını göstərmir. Müharibə dövründə silahların susması münaqişənin bitdiyini deməyə əsas vermir. Münaqişə ilə bağlı geniş müzakirəmizdən də göründüyü kimi, bütün tərəflərin maraqları məqbul səviyyədə təmin olunmayanadək münaqişənin həll olunduğunu deyə bilmərik. Hətta bu halda belə münaqişə zamanı yaranmış antaqonizm və nifrəti aradan qaldırmaq üçün tərəflər mühüm proseslərdə iştirak etməli ola bilər.

Sülh prosesləri və danışıqlarını işıqlandırarkən göstərməli olduğumuz bəzi davranışlar aşağıdakılardır:

- Tərəflərin hərəkətlərini danışıqlar masasından kənarda izləməyə davam etmək. İnsanlar dialoqa girdiyi üçün, həqiqətən də, həll yolları axtardıqlarını asanlıqla qəbul etməməliyik. Tərəflərin yenidən qruplaşmaq və yeni hərbi əməliyyatlara hazırlaşmaqdan ötrü vaxt qazanmaq üçün danışıqlara girməsi nadir hal deyil.
- Danışıqlar prosesindən kənarda qalan insanları müəyyənləşdirərək, onların proseslərə necə cəlb olunacağı ilə bağlı suallar vermək.
- Danışıqlar zamanı əldə olunan irəliləyişlər barədə ictimaiyyəti məlumatlandırmaq. İnsanlar irəliləyiş əldə edildiyini bildikdə, prosesə inamları arta bilər. Bu, gərginliyi və zorakılıq ehtimalını azaltmağa kömək edə bilər. Bununla yanaşı, danışıqlar prosesini pozmaq üçün zorakılığın şiddətlənməsinə çalışan başqaları da ola bilər.
- Kiçik uğurları vurğulamaqdan çəkinmək. Danışıqlar zamanı bir sıra kiçik razılaşmalar əldə oluna bilər, lakin biz insanları çox erkən sevinməyə təşviq etməməliyik. Kiçik nailiyyətlər qeyd oluna bilər, amma auditoriyanı xəbərdar etmək lazımdır ki, hələ görüləsi çox iş var.
- Danışıqların son dərəcə həssas ola biləcəyini unutmamaq. Elə vaxtlar olacaq ki, tərəflər rəsmi razılaşmalar əldə etməyənədək baş verənləri ictimaiyyətə bildirmək istəməyəcək. Sızılan xəbərlərə qarşı çox diqqətli olmalıyıq, çünki bunu bəzən prosesləri pozmaq istəyən insanlar edə bilər. Həmçinin yalan da ola bilər.
- Sülhün yaradılması üçün vaxt və səbir lazım olduğunu qəbul etmək. Danışıqlar davam edərkən insanlar çox zaman səbirsiz olur və jurnalistlər insanlara yaxşı razılaşmaların tələsik əldə edilmədiyini başa düşməyə kömək edə bilərlər.
- Sülhqurucularının prosesdə iştirakına tənqidi yanaşmaq. Sülh prosesləri sadəcə tərəflər həll yolu tapmaq istəmədikləri üçün uğursuz olmur; həm də səmərəli qurulmamış proseslərə görə nəticəsiz qalır. Bu məsələlər barədə fikir bildirmək üçün bilik və təcrübəmiz yoxdursa, bu sahədə mütəxəssislərlə danışmaq faydalı ola bilər.
- Sadə xalq təbəqəsindən olan insanlara öz düşüncələrini ifadə etmək imkanını təmin etmək. Sıravi insanlarla danışaraq və fikirlərini işıqlandıraraq, bəzən bu fikirlərin danışıqlara daxil edilməsini mümkün edə bilərik.

Aşağıdakı sualları sülh təklifləri və razılaşmalarını işıqlandıran jurnalistlərin istifadəsi üçün Yohan Qaltunq[1] təklif edilib. Bu suallar – sülh razılaşmalarını işıqlandırarkən əsas məsələləri nəzərə almaları üçün jurnalistlərə yol göstərir. Onların hər biri xüsusi olaraq sülh razılaşmasının davamlı olub-olmamasını sorğulayır.

- Planın hazırlanmasında hansı metoddan istifadə olunub? Bütün tərəflər dialoqa cəlb olunubmu?

[1] Qaltunq Yohan. 1998. Yüksək yol, alçaq yol: Sülh jurnalistikası kursunun yaradılması. İkinci istiqamət, 7(4). Burdan əldə edə bilərsiniz: http://www.ccr.uct.ac.za/archive/two/7_4/p07_highroad_lowroad.html.

- Planı bütün tərəflər qəbul edibmi? Etməyibsə, bununla bağlı nə etmək olar?
- Plan həyata keçirildiyi təqdirdə özlüyündə dayanıqlıdırmı? Deyilsə, bu barədə nə etmək olar?
- Plan münaqişə tərəflərinin müstəqil fəaliyyətinə əsaslanır, yoxsa kənar qüvvələrdən asılıdır?
- Planda proses nə dərəcədə təsvir olunub? Kimin, nə vaxt, necə və harada nə edəcəyi izah edilirmi?
- Plan nə dərəcədə yalnız elit təbəqənin edə biləcəklərindən asılıdır?
- Plan münaqişənin həlli prosesinin davamlı olmasını nəzərə alırmı, yoxsa birdəfəlik razılaşmadan ibarətdir? Niyə?
- Zorakılıq baş vermişdirsə, planda reabilitasiya/yenidənqurma, barışıq və ədalət elementləri nə dərəcədə mövcuddur?
- Plan işə yaramırsa, düzəliş edilməsi mümkündürmü? Plan bu münaqişə üçün uyğun olsa da, yeni münaqişələr və ya problemlər yaradırmı? Aidiyyəti olan hər kəsə uyğundurmu?

Çox vaxt nəzərə alınmayan sual – qadınların sülh proseslərində nə dərəcədə iştirak etməsi ilə əlaqədardır. Qadınlar çox zaman münaqişənin ağır yükünü daşıyan insanlardır, ancaq sülh razılaşmaları üzrə danışıqların vaxtı gəldikdə onlar çox zaman kənarda qalırlar. Qadınların bu prosesə nə dərəcədə cəlb olunub-olunmadıqlarını bildikdən sonra, qadın təşkilatlarına müraciət edərək, problemlə bağlı fikirlərini işıqlandıra bilərik.[1]

| **Dördüncü hissəyə dair qeydlər:** |
| --- |
| |
| |
| |
| |



[1] BMT Təhlükəsizlik Şurasının 1325 (2000) saylı qətnaməsi sülh razılaşmalarının tamamlanmasında və icrasında qadınların iştirakını təmin etmək üçün beynəlxalq ictimaiyyətin öhdəliyini əks etdirir.

# Beşinci hissə: Münaqişənin işıqlandırılması barədə yaradıcı düşünmək[1]

**DÜŞÜNCƏ ANI 5:**

**Bu fikirlərdən hər hansı birinin həyata keçirildiyini görmüsünüzmü? Nə dərəcədə işə yarayıblar? Münaqişəni işıqlandırmaq üçün başqa hansı yaradıcı strategiyalardan istifadə etmisiniz və ya digər jurnalistlərin istifadə etdiyini görmüsünüz? Bunlardan hansı hazırda diqqət yetirdiyiniz münaqişələrin işıqlandırılmasında faydalı olardı?**

Münaqişənin gündəlik işıqlandırılması mühüm olsa da, münaqişə hekayələrinin hazırlanmasına yaradıcı yanaşmaq da əhəmiyyətlidir; bu, tərəflərin bir-biriləri haqqında daha çox məlumat əldə etmələrinə və çəkişən qruplar və ya millətlər arasında körpülər qurmağa kömək edə bilər. Bunları edə biləcəyimiz bir çox yol var və jurnalistlərin öz məzmunlarına uyğunlaşdıra biləcəyi üsullardan bəziləri aşağıda verilib.

## 5.1. Birgə müsahibələr

Bu yanaşmada münaqişənin fərqli tərəflərindən olan insanları müəyyən edəcəyik və onlarla eyni otaqda və ya Zoom kimi bir platformada birlikdə müsahibə aparacağıq. Məqsəd müsahiblər arasında dialoqu təşviq etmək və dediklərini qeydə almaqdır. Onlar bir-biri haqqında nə öyrənirlər? Bu, qarşılıqlı anlayışı necə artıra bilər? İştirakçıların seçimi həlledici olacaq. Əmin olmaq istəyirik ki, müzakirələr qarşılıqlı təhqirlə bitməyəcək, əks təqdirdə bu tip qarşılaşmalardan heç nə öyrənə bilmərik. İnsanları maraqlı tərkibdə bir araya gətirməyi düşünməliyik. Məsələn:

- Münaqişə başlamazdan əvvəl dost olan insanlar;
- Birlikdə böyüyən və münaqişə nəticəsində ayrılan insanlar;
- Fərqli qruplardan olan cütlüklər;
- Müxtəlif qruplardan olan və hələ də birlikdə idman oyunları oynayan insanlar.

Münaqişənin aktiv olduğu bir mühitdə tərəflərin liderləri belə müsahibələrdə iştirak etməyə razılaşmaya bilər, lakin münaqişədən sonrakı vəziyyətdə bir araya gəlməyə hazır ola bilərlər. Bu cür hekayələr həm təsirli, həm də əyləncəli ola bilər, həmçinin stereotiplərlə mübarizə aparmağa və müxtəlif qruplardan olan insanların ortaq insani dəyərlərini görməyə kömək edə bilər.

## 5.2. Əks tərəfdəki jurnalistlər

Bir çox münaqişələrdə müəyyən bir milli, etnik və ya dini qrupdan olan jurnalistlər "rəqib" qrupun üzvlərinin nəzarətində olan ərazidə baş verənləri işıqlandırmaq imkanından məhrum edilə bilər. Bəzən digər qrupun jurnalistləri ilə müştərək hekayələr üzərində işləyib bu problemin öhdəsindən gələ bilərik. Bu yanaşma, nəinki başqa cür əldə edə bilməyəcəyimiz məlumatlara çıxışı təmin edir, həmçinin hekayədə müəllif imzalarımızın birgə qeyd olunması – fərqli qruplardan olan insanların konstruktiv olaraq işləyə biləcəyinin simvolu ola bilər.

[1] Aşağıdakı təkliflər bu mənbədən adaptasiya edilmişdir: Dü Toi, P. 2012. Münaqişə jurnalistikası: Jurnalistlər üçün alətlər toplusu. Rods Universitetinin Sol Plaatje Media Liderliyi İnstitutu tərəfindən nəşr edilmişdir.

## 5.3. Sual mübadiləsi

Bu yanaşma fərqli qruplardan olan insanların bir-biriləri haqqında daha çox məlumat əldə edə bilmələri üçün xüsusi olaraq hazırlanıb. İnsanlara stereotiplərlə mübarizə aparmağa və müəyyən məsələlərin digər qrupların üzvləri üçün niyə vacib olduğunu öyrənməyə kömək edə bilər. Proses bir qrupun üzvlərinin digər tərəf haqqında bilmək istədikləri ilə bağlı sualların jurnalist tərəfindən toplanmasıyla başlayır. Jurnalist daha sonra digər qrupun üzvlərindən bu suallara cavab vermələrini xahiş edir, suallara və cavablara əsaslanaraq hekayəni hazırlayır. Rolların dəyişdirilməsi ilə proses təkrarlana bilər. Universitet tələbələri, gənclər, qadın qrupları və ya dini qurumlar kimi müəyyən insan qrupları hədəf alındıqda bu yanaşma daha yaxşı işləyir.

## 5.4. Bütün tərəflərə eyni sualları vermək

Münaqişədə iştirak edən hər bir tərəfə eyni sualları verməklə insanların harada ortaq, harada isə fərqli narahatlıqlara malik olduğunu müəyyən etməyə kömək edə bilərik. Aşağıda münaqişənin müxtəlif tərəflərindən olan insanlara verə biləcəyimiz bəzi suallar əksini tapıb.

- Sizcə, bu münaqişənin əsas səbəbi nədir?
- Siz tərəfiniz/təşkilatınız üçün həll edilməsini istədiyiniz prioritet məsələlər nələrdir?
- Bu münaqişəyə yanaşmanın ən konstruktiv yolu nə olardı?
- Sizcə, qarşı tərəfin narahatlıqlarını da nəzərə almaqla, öz tələblərinizi necə təmin edə bilərsiniz?
- Qarşı tərəfin sizin haqqınızda nəyi bilməsini istərdiniz?

Tərəflərin bu sualları cavablandırarkən bir-birini eşitmələrini təmin edə bilsək, insanlara ortaq nöqtə və fikir ayrılıqlarının harada olduğunu görmələrinə kömək edə bilərik.

## 5.5. Sülhməramlıları üzə çıxarmaq



Münaqişəni işıqlandırarkən sülh üçün çalışan insanların profilləri sülh prosesi və zorakılıqla mübarizə haqqında məlumatlılığı artırmağa kömək edə bilər. Bu profillər, adətən, yüksəkstatuslu insanları əks etdirir, lakin fərq yarada bilən sadə insanlar da bəzən çox maraqlı hekayələrə malik ola bilər. Yerli səviyyədə qruplar arasında körpü yaradan insanlara, zorakılıq ehtimalı olduqda müdaxilə edən sülh komitələrinin təşkilatçılarına və müxtəlif qruplardan olan uşaqlar üçün sülh bağçaları quran insanlara diqqətimizi yönəldə bilərik. Bu cür hekayələr insanların bir-biriləri haqqındakı stereotipləri və düşmən obrazları ilə mübarizə aparmaq üçün əhəmiyyətli rol oynaya bilər. Əlbəttə ki, bu insanlar haqqında hekayələri təqdim edərkən, bizim rolumuz onlara fikirlərini bölüşmək imkanı verməklə məhdudlaşır və onların fəaliyyətinə qoşulmuruq.

## 5.6. Fikirlərimizi paylaşmaq – blogerlər üçün qeyd

Jurnalistlər, demək olar ki, heç vaxt öz fikirlərini birbaşa xəbərlərə daxil etmirlər, ancaq bunu etmələrinin olduqca məqbul olduğu bir çox platforma var. Bir çoxlarımız sosial mediada fəalıq və bəzilərimiz bloq yazıları və video şəklində müntəzəm olaraq öz məzmunumuzu paylaşırıq. Bunlar özümüzü ifadə etmək üçün əhəmiyyətli məkanlar ola bilər, ancaq onların istifadəsinə də həssas yanaşmalıyıq. Hazırladığımız xəbərlərdə nə qədər neytral olmağa çalışsaq da, şəxsi virtual məkanlarımızda qıcıqlandırıcı bəyanatlar veririksə, bu bizim etibarlılığımıza və işlədiyimiz media təşkilatlarının etibarına təsir edəcək.

Aşağıda münaqişə ilə bağlı öz düşüncələrini paylaşan jurnalistlər üçün bəzi təkliflər verilib.

- **Auditoriyanıza hörmət edin.** Öz maraqlarınızı və ya qrupunuzun maraqlarını təbliğ etmək üçün platformadan sui-istifadə etməyin. Münaqişədə iştirak edən digər qrupların narahatlıqlarını nəzərə almalı və əlimizdə olan məkandan insanların bir-birinin mövqelərini anlamaları üçün istifadə etməliyik.
- **Fikir müxtəlifliyini təbliğ edin.** Münaqişəyə tək bir yanaşma və ya həll yolunu təşviq etmək əvəzinə, tərəflər üçün bir çox fərqli yolların ola biləcəyini göstərə bilərik. Şəxsi mövqeyimizi ortaya qoymaq, müzakirəyə töhfə verdiyimizi və fərqli fikirləri təşviq etdiyimizi auditoriyaya göstərməlidir.
- **Özünüz araşdırma aparın.** Ən son xəbərlər verməyə bilərik, amma yenə də sanballı araşdırmalara əsaslanmalıyıq. İstifadə etdiyimiz məlumatların haradan gəldiyini izah etməliyik. İnsanlara etibarlı və güvənilən məlumatlar verməliyik ki, təqdim etdiyimiz fikirləri nəzərə almağa dəyib-dəymədiyini ədalətli şəkildə qiymətləndirə bilsinlər.
- **Cavab reaksiyasını nəzərə alın.** Auditoriyamızın müxtəlifliyindən xəbərdar olmalı və söylədiklərimizin müxtəlif icmalardakı insanlara necə təsir edəcəyini düşünməliyik. Bu o demək deyil ki, özümüzü senzura etməliyik, ancaq başqalarını bilməyərəkdən incitməmək üçün ehtiyatlı olmalıyıq. Təxribatçı olmaq naminə təxribat etmək əyləncəli ola bilər, ancaq münaqişə vəziyyətində bu, nadir hallarda kömək edir.
- **Özünüzə hörmət edin**. İşimizin bizi necə əks etdirdiyinin fərqində olmalıyıq. Seksist, homofob, sinif və etnik baxımdan bölücü dil üslubundan istifadə edirikmi? Digər məkanlarda ictimailəşdirdiyimiz düşüncələrimiz izləyicilərin ciddi xəbərlərimizə yanaşmasını dəyişə, bizim və iş gördüyümüz təşkilatların etibarına təsir edə bilər. Bir çox insan sosial media platformalarında təhqiramiz paylaşımlara görə nüfuzdan düşüb.
- **Müşahidələrinizə əsaslanın.** Münaqişə vaxtlarında fərq yaradan insanlar haqqında öyrənməli və onlar haqqında yazmalıyıq, nələrə nail olduqlarını müzakirə etməli və başqalarının oxşar töhfələri necə verə biləcəyini təklif etməliyik. Mümkün olan həll yolları haqqında fikir yürütmək və insanları fikirlərimizi nəzərdən keçirməyə təşviq etmək üçün virtual məkandan istifadə edə bilərik. Haqlı olmağımıza ehtiyac yoxdur, amma yaradıcı düşüncənin inkişafına töhfə vermək istəyirik.

| **Beşinci hissəyə dair qeydlər:** |
| --- |
| |
| |
| |
| |

# Altıncı hissə:
# Münaqişə ilə bağlı müsahibəyə yanaşmalar[1]

Müsahibə, bəlkə də, jurnalistin alətlər qutusundakı ən vacib vasitədir. İnsanlarla danışma tərzimiz və verdiyimiz suallar onların bizə qarşı necə reaksiya verəcəyini və münaqişələr haqqında onlardan nə öyrənə biləcəyimizi müəyyən edəcək. Altıncı hissədə münaqişə ilə bağlı müsahibə üçün bəzi ümumi tövsiyələr, daha sonra isə zorakılığa məruz qalmış insanlardan müsahibə götürməyin çətinliklərini nəzərdən keçirəcəyik.

**DÜŞÜNCƏ ANI 6:**

**Bu siyahıya əlavə oluna biləcək tövsiyələrin sayı məhdud deyil. Bura müsahibə götürməyə dair başqa hansı fikirləri daxil edərdiniz? Silmək və ya dəyişdirmək istədiyiniz təkliflər varmı?**

## 6.1. Münaqişə ilə bağlı müsahibə götürmək üçün bəzi ümumi tövsiyələr

Düzgün götürülmüş müsahibə məlumatları daha dərindən nüfuz edərək əldə etməyə və beləcə, münaqişənin həll yollarını tapmaqda insanlara kömək etməyə imkan verir. Müsahibələr keçirərkən faydalanacağımız və münaqişəni işıqlandırarkən müsbət töhfə verməyimizə yardım edəcək bir sıra sadə təkliflər aşağıdakılardır.

- Məqsədimiz, müsahiblərin fikirlərinin çatdırılması və başa düşülməsi üçün mümkün dərəcədə ən yaxşı imkanları təmin etməkdir. Əmin olmalıyıq ki, hazırladığımız materiallar mənbənin demək istədiyini dəqiqliklə əks etdirir. İnsanların dediklərini təhrif etsək, münaqişənin daha da şiddətlənməsinə və ya uzanmasına təsir edə bilərik.
- Sualları qalib və ya məğlub tərəfə ünvanlanacaq şəkildə qurmaqdan çəkinin. Məqsədlər, vəzifələr və strategiyalar haqqında suallar verərkən tərəfləri sıfır-cəm barədə fikirlərdən uzaqlaşmağa təşviq edin. Suallarımızı ifadəetmə tərzimiz onların necə cavab verəcəyinə təsir edəcək. “Sizi qane etmək üçün nə lazımdır?” sualı ilə “Bu münaqişənin hamını qane edəcək şəkildə həll edilməsi üçün nə lazımdır?” sualı arasında çox böyük fərq var. Birincisi sıfır-cəm şəklində cavab tələb edir, ikincisi isə insanları daha geniş düşünməyə vadar edir. Hər ikisi ədalətli sualdır, amma ikincisinin konstruktiv cavabı təşviq etmək ehtimalı daha yüksəkdir.
- Müsahibləri digər aidiyyəti tərəfləri nəzər almağa sövq edin. Tərəflərdən yalnız öz ehtiyaclarını və maraqlarını ifadə etmələrini istəmək əvəzinə, onlardan münaqişədə iştirak edən digər tərəflərin ehtiyaclarını və maraqlarını necə başa düşdüklərini də soruşmalıyıq.
- Biz kiminsə müharibəsində alət kimi istifadə olunmaqdan uzaq durmalıyıq. Tərəflər çox zaman müsahibələr zamanı rəqibləri haqqında çox təxribatçı fikirlər söyləyirlər. Müsahibə verənləri senzura etmək istəmirik, amma onların ifadələrini sorğulamaqdan çəkinməməliyik. Bu, insanlardan başqaları haqqında irəli sürdükləri mənfi iddiaları əsaslandırmalarını istəmək mənasına gələ bilər. Bu həm də tənqid olunan əks tərəflərin mənfi şərhlərə necə reaksiya verə



[1] Adaptasiya edilmişdir: Dü Toi, P. 2012. Münaqişələrin işıqlandırılması: Jurnalistlər üçün alətlər qutusu. Rodos Universitetinin Sol Plaatje Media Liderliyi İnstitutu tərəfindən nəşr edilmişdir.

biləcəyi ilə bağlı müsahiblərin gözləntilərini soruşmaq deməkdir.

- Qətiyyətli olun. Münaqişələrə həssas olmaq jurnalistlərin lazım gəldikdə müsahiblərə qarşı tələbkar davranmasına mane olmur. Tərəflər yalan iddialar və ifrat tələblər irəli sürdükdə onlar sorğulanmalıdır. İnsanlardan öz iddialarını əsaslandırmaları gözlənilməlidir.
- Diqqətlə dinləyin və insanların cavablarını onlara öz sözlərinizlə ifadə edərək təkrarlayın. Münaqişə zamanı insanların söylədiklərini yanlış təqdim etməyi özümüzə rəva görə bilmərik. İnsanların həyatı həmin sitatı düzgün çatdırmağımızdan asılı ola bilər. Mənbənin bizə dediklərini tam olaraq başa düşdüyümüzdən əmin olanadək davam etməkdə heç bir zərər yoxdur. Məsələn, müsahibin mövqeyini onlara bu cür təkrarlaya bilərik: "Əgər sizi düz başa düşdümsə, bu barədə mövqeyiniz ABC-dir...?"
- Öz sözlərinizi insanlara dedirtməyin. Jurnalistlərin istədikləri cavabı almaq üçün verdiyi "Razısınız ki, XYZ...?" kimi suallardan çəkinin. Biz müsahiblərlə səbirli olmalı və fikirlərini öz sözləri ilə ifadə etmələrinə şərait yaratmalıyıq.
- Qərəzsiz olduğunuzu göstərən üslubdan istifadə edin. Biz istəmirik, elə təəssürat yaransın ki, sanki hansısa bir tərəfə simpatiya bəsləyirik; əksinə, istəyirik ki, hər kəsin dedikləri ilə maraqlandığımız aydın bilinsin.
- Biz qəbul etmədiyimiz və bəzən mənfur hesab etdiyimiz fikirlərə və ideologiyalara malik insanlarla tez-tez ünsiyyətdə oluruq. Belə hallarda, hisslərimizin müsahibədə davranışımıza necə təsir edə biləcəyi üzərində əvvəlcədən düşünməliyik. Bu bizim xoşumuza gəlməyə bilər, lakin insanlarla müsahibə keçirməyi planlaşdırdıqda, hekayəni onların dilindən eşitmək üçün ədalətli mühit yaratmağı öz öhdəmizə götürürük.

## 6.2. Münaqişənin təsirinə məruz qalmış insanlardan müsahibə götürmək

Münaqişənin təsirinə məruz qalan insanlarla müsahibənin aparılmasına dair aşağıdakı məsləhətlər münaqişə zonalarında işləmiş və uzun illər travmalı insanlarla müsahibə aparmış təcrübəli jurnalistlərin fikirlərinə əsaslanır.

- Özünüzü elə göstərməyin ki, sanki münaqişə nəticəsində əziyyət çəkən birinin yaşadıqlarını başa düşürsünüz. Tələsməyin və şəxsə öz hekayəsini öz sürəti ilə danışmasına imkan verin. Laqeyd olmadığımızı göstərməkdə heç bir zərər yoxdur. Əzablara biganə qala bilmərik, amma yenə də istəmirik, elə təəssürat yaransın ki, sanki müəyyən bir qrupa simpatiya bəsləyirik. Dərk edin ki, insanların bizim təsəvvür belə edə bilməyəcəyimiz təcrübələri ola bilər.
- Müsahibəyə başlayarkən həssas davranın və daha çətin suallar verməzdən əvvəl insanın özünü rahat hiss etməsinə imkan verin. Müsahibəyə nəzarətin onların əlində olduğunu bildirin. Bizə nə qədər çox və ya az demək istədiklərinə özləri qərar verə bilər.
- Aydınlaşdırıcı suallar vermək kömək edə bilər, amma müsahibin emosional ehtiyaclarına həssas yanaşmalıyıq.
- Özlərini emosional hiss edərlərsə, onlara düşünmək və toparlanmaq imkanı yaratmaq üçün müsahibəyə bir qədər pauza vermək kömək ola bilər.
- Açıq suallar vermək – insanları hekayələrini öz sözləri ilə danışmağa sövq edir. "Bəli" və "Xeyr" cavablarına səbəb olan qapalı suallar çox vaxt müsahibin izahatları əvəzinə jurnalistin fikirlərini ön plana çəkir.
- Müsahibə zamanı həmin şəxsi dəstəkləyəcək insanların orada olması kömək edə bilər.
- İnsanlara müsahibədə danışılanların necə istifadə oluna biləcəyini və hekayədə kimliklərinin qeyd olunub-olunmamasını seçə biləcəklərini izah etməli və başa düşdüklərindən əmin olmalıyıq.

- Travmaya məruz qalmış insanların səhv və ya məntiqsiz ifadələr işlədə biləcəyini nəzərə almalıyıq.

Mənbənin dediklərini düzgün anladığımızdan əmin olmalıyıq. Bunun üçün hekayəmizdə istifadə etməyi düşündüyümüz məqamları vurğulamalıyıq. Həmçinin fikirləri düz qavradığımıza və hər hansı bir məlumatı nəzərdən qaçırmadığımıza əmin olmaq üçün mənbə ilə yoxlamalıyıq.

Biz, həmçinin münaqişənin təsirinə məruz qalmış insanlardan müsahibə almazdan əvvəl özümüzü bu prosesə emosional olaraq hazırlamalıyıq. Jurnalistlər zaman keçdikcə soyuqqanlı olur, lakin çox zaman müsahibə və ya müsahib ilə bağlı bəzi məqamlar bizi dərindən təsirləndirir. Biz bu ehtimala qarşı diqqətli olmalı və belə hal baş verərsə, necə davranacağımızı düşünməliyik.

Həmçinin tuta bilməyəcəyimiz vədləri verməməliyik. Ən yaxşı halda söz verə bilərik ki, onların yaşadıqlarını və ehtiyaclarını başqalarının anlaya bilməsi üçün hekayələrini dəqiqliklə və ehtiramla çatdırmağa çalışacağıq. Hekayələrimizin dəyişiklik gətirəcəyinə və ya problemlərini həll edəcəyinə söz verə bilmərik. Bir çoxlarımız hətta zəmanət də verə bilmərik ki, təşkilatlarımız hekayələrimizi istifadə edəcək. İzah olunmalıdır ki, nəyin işıqlandırılacağına dair son qərarı redaktorlarımız verir.

| Altıncı hissəyə dair qeydlər: |
|---|
| |
| |
| |
| |

# Yeddinci hissə:
# Münaqişə zamanında özümüzü qorumaq

Bu bələdçi kitabın son hissəsində jurnalistlərin münaqişələri işıqlandırarkən böyük risklərlə üzləşə biləcəyini dərk edirik və özümüzü fiziki və psixoloji zərərdən qorumaq üçün ata biləcəyimiz bəzi addımları nəzərdən keçiririk.

**DÜŞÜNCƏ ANI 7:**

**Bu təkliflərlə tanış olduqdan sonra bölgənizdə baş verə biləcək zorakı bir münaqişəni işıqlandırmağa özünüzü nə dərəcədə hazır hiss edirsiniz? Çətin vəziyyətə düşməmək üçün nə edə bilərsiniz? Cəbhə xəttində münaqişələri işıqlandırmaq sahəsində təcrübəli bir jurnalistsinizsə, daha az təcrübəli həmkarlarınızın təhlükəsiz qalmasını təmin etmək üçün nə edə bilərsiniz?**

## 7.1. Münaqişəni işıqlandırarkən təhlükəsiz qalmaq

Müharibələr, vətəndaş iğtişaşları və ya nisbətən az şiddətli münaqişələr haqqında məlumat verib-verməməyimizdən asılı olmayaraq, potensial təhlükəli vəziyyətlərə nə vaxt düşəcəyimizi ehtimal edə bilmərik. Qeyri-sabit vəziyyətlərdə sağ qalmaq üçün təcrübə əvəzsizdir, ancaq münaqişə bölgələrində çalışmış jurnalistlərin verdiyi məsləhətlər də bizə hazır olmağa kömək edə bilər.

- **İnsanlara hər zaman harada olduğunuzu bildirin.** Qeyri-sabit bir vəziyyətdəsinizsə və ya belə bir vəziyyətə düşmək ehtimalınız varsa, işlədiyiniz quruma hara getdiyinizi və nə vaxt geri dönməyi planlaşdırdığınızı bildirin. Planlarınız dəyişərsə, onları yenə məlumatlandırın. Müəyyən olunmuş vaxtlarda sizdən xəbər alınmazsa, həmkarlarınız sizin üçün kömək təşkil edə bilərlər; ancaq onlar sizin harada olduğunuzu bilmirlərsə, məsələ daha da qəlizləşə bilər.
- **Nə qədər sürətlə hərəkət etdiyinizin fərqində olun.** Döyüşü, iğtişaşları və ya nümayişi işıqlandırarkən hadisələrə o qədər aludə ola bilərik ki, həmkarlarımızı, harada olduğumuzu və təhlükəsiz şəraitə necə qayıdacağımızı bilmərik. Hadisələrə ilişib qalsanız, döyüşçü və ya etirazçı qruplar arasında təcrid olunmaq təhlükəsi ola bilər.
- **İnsanların xəbər mediasına münasibətini anlamağa çalışın.** Mediaya qarşı həddindən artıq mənfilik hiss olunursa, çox ehtiyatlı olun. Akkreditasiya sənədini özünüzlə daşıyın, ancaq onu nümayiş etdirib-etdirməyəcəyinizə dair özünüz mülahizə edin. Maşınınızdakı “Press” işarəsi bir qədər müdafiə təmin edə bilər, amma bəzi vaxtlarda bu sizi hədəfə də çevirə bilər.
- **Ərazidəki qrup liderlərinin adları ilə tanış olun.** Münaqişə qruplarından birinin üzvləri tərəfindən təhdid edildiyinizdə hörmət edilən liderlərin adlarını çəkmək çətin vəziyyətdən çıxmağınıza kömək edə bilər. Hörmətli bir liderlə necə əlaqə quracağınızı bilmək sizi potensial təhlükədən uzaqlaşdıra bilər.
- **Atışma başlasa, yerə yatmağa hazır olun.** Unutmayın ki, maşınlar və nazik divarlar hərbi silahlara qarşı az və ya heç bir müdafiə təmin etmir. Xəndəkdə düz uzanmaq

atışma başlayanda ən təhlükəsiz yer ola bilər. Aşağı yatmaq həm də sizi qəlpələrdən qoruya bilər.

- **Qaçış planınızı qurun.** Ərazi ilə tanış olun və vəziyyət həddindən artıq qeyri-sabit olarsa, necə qaçacağınızı planlaşdırın. Planlaşdırdığınız yol bloklanacağı təqdirdə istifadə edə biləcəyiniz ən azı bir ehtiyat marşurutunu düşünün. Hərəkət etdikcə çıxış yollarını vəziyyətə uyğun seçin.
- **Ətrafınızdakı insanların əhvalının necə dəyişdiyini izləyin.**
- **Digər jurnalistlərlə qalın.** Dəfələrlə reportyorlar təkbaşına getdikləri zaman necə çətinlik çəkdiklərini danışıblar. Ola bilsin ki, dəstədə olmaq istəmirsiniz, amma sayın çox olmasında müəyyən təhlükəsizlik var.
- **Uyğun geyinin.** Müxtəlif tərəflərlə əlaqələndirilə biləcək rənglərdən, siyasi köynəklərdən, eləcə də polis və hərbi geyim formaları ilə səhv salına biləcək paltarlar geyinməkdən çəkinin.
- **Qaça biləcəyiniz ayaqqabı geyinin.** Qaçış və ya idman ayaqqabıları, ya da yüngül yürüş çəkmələri ən yaxşısıdır. Təbii liflərdən hazırlanan geyimlər həm soyuq, həm də istidən qoruyur və alışmaq ehtimalı azdır.
- Lazım gələrsə**, qoruyucu geyim,** güllə keçirməyən jilet və dəbilqə geyinin.
- Üzərində aşağıdakı məlumatlar olan **fövqəladə hal kartı** hazırlayın:
  - Adınız, soyadınız və işlədiyiniz təşkilat;
  - Sizə bir şey olarsa, insanların əlaqə saxlaya biləcəyi nömrələr;
  - Qan qrupunuz;
  - Allergiyanız olan hər hansı dərman haqqında məlumat.

Mümkünsə üzəri laminasiya edilməli və insanların tapa biləcəyi bir yerdə saxlanılmalıdır.

- **Zəruri təchizatı özünüzlə daşıyın.** Fövqəladə hallarda özümüzlə daşımağımız tövsiyə olunan bəzi faydalı əşyaların siyahısı aşağıda verilib:
  - Su, su filtrləri və ya təmizləyici tabletlər, həmçinin enerjiverici qida paketləri;
  - Müntəzəm olaraq ehtiyacınız ola biləcək dərmanlar;
  - Fənər, kompas, ilk yardım çantası və falqa ədyal;
  - Ehtiyat cib telefonu, müxtəlif şəbəkə provayderlərinin SİM kartları və ehtiyat batareyalar.
- **Ayıq olmaq** sağ qalmağın ilkin şərtidir. Vəziyyət daha da gərginləşmədən ərazidən erkən uzaqlaşın. Emosiyalarınıza daim hakim olun, şifahi və ya fiziki təxribatlara heç vaxt hiddətlə reaksiya verməyin.

Qeyri-sabit vəziyyətə hazırlaşmaq üçün əlavə tövsiyələr aşağıdakılardır:

- **Fiziki sağlamlıq üçün məşq edin.** Bəzən saatlarla davam edən nümayişi işıqlandırmaq və ya uzaq bir kənddə zorakılığın baş verməsi barədə şayiələri araşdırmaq üçün uzun məsafələr qət edəcəyik. İdmanla mütəmadi məşğul olmaq təhlükəli vəziyyətlərdən daha asan çıxmağımıza və stresdən azad olmağımıza da kömək edə bilər.
- **İlk yardım üzrə təlim alın.** İlk tibbi yardım haqqında zəruri məlumatımız olmadığına görə, yaralı həmkarımıza kömək edə bilməmək bizi çox pis vəziyyətdə qoya bilər. Biz, həmçinin fövqəladə vəziyyətdə özümüzü müalicə etmək və ya bizə kömək edən həmkarımızı yönləndirmək üçün biliklərimizdən istifadə edə bilərik. Sahədə özünüzlə daşıya biləcəyiniz ilk yardım çantasını da hazırlayın.

## 7.2. Ruhi sağlamlığımızın qayğısına qalmaq

Jurnalistlər hər gün travmatik hadisələrlə üzləşir. Həm təbii, həm də texnogen fəlakətləri işıqlandırarkən bu hadisələrin insanların həyatını necə məhv etdiyini çatdırmalıyıq. Münaqişə zamanı müharibənin dəhşətlərinin və vətəndaş qarşıdurmasının döyüşçülərə, hüquq-mühafizə orqanlarına, mülki şəxslərə və uşaqlara təsirinin şahidi oluruq. Biz özümüz də zorakılığa məruz qala bilərik, belə ki, jurnalistlər getdikcə daha çox hücum, hədəfli sui-qəsdlər, adam oğurluqları və çoxsaylı müxtəlif hədə-qorxu formalarının qurbanlarına çevrilir. Biz, həmçinin böyük əzablar çəkmiş insanlarla uzun-uzun söhbət edirik və təbii olaraq onların ağrılarını müəyyən dərəcə hiss edirik. Başqalarının travmalarını işıqlandırmaq işimizin bir hissəsidir, lakin bu prosesin bizə necə təsir etdiyini çox zaman unuduruq.

Hazırki dövrdə travmanın jurnalistlərə təsiri daha çox bilinir və travmatik vəziyyətlərlə birbaşa əlaqəli olan əsgərlər, polislər və ilk müdaxilə edən operativ işçilərlə eyni psixoloji zərbəyə məruz qala biləcəyimiz artıq daha geniş qəbul olunur. Posttravmatik stres pozuntusunun (PTSP) bir çox əlamətləri jurnalistlərdə tez-tez müşahidə olunur və bir çoxu peşəkar məsləhətlərdən faydalanır. Bu əlamətlərin bəziləri aşağıdakılardır:

- travmatik hadisə ilə bağlı ani xatırlamalar və kabuslu yuxugörmələr;
- səbəbsiz gərginlik və tez qıcıqlanma;
- diqqəti cəmləyə bilməmək;
- keylik hissi, dünyadan və sevdiklərindən təcrid olunmaq;
- tək qalmaq istəyi;
- travmatik hadisə ilə bağlı xatirələrdən qaçmaq;
- adət etdiyindən daha çox içki içmək və siqaret çəkmək.[1]

Əgər bu narahatedici əlamətlər zamanla keçməzsə, işimizə və münasibətlərimizə təsir göstərməyə başlayarsa, peşəkar kömək istəmək üçün başqaları ilə danışmalıyıq.

Hətta PTSP yaşamasaq belə, münaqişənin işıqlandırılması zamanı məruz qaldığımız stresi idarə etməyimizə kömək edə biləcək bəzi şeylər var. Aşağıdakı məsləhətlər travmalı jurnalistlərlə işləyən Dart Fondunun[2] tövsiyələri əsasında hazırlanıb.

- Şəxsi sərhədlərinizi tanıyın. Tapşırığı yerinə yetirə bilməyəcəyinizi hiss edirsinizsə, bunu redaktorunuzla müzakirə edin və səbəblərinizi izah edin.
- Fasilələr verin. Travmatik vəziyyətdən bir neçə saat uzaqlaşmaq stresi aradan qaldırmağa kömək edə bilər.
- Kiminləsə danışın. Etibar edəcəyiniz və yaşadıqlarınızı anlaya biləcək birini tapın. Əmin olun ki, bu şəxs sizi mühakimə etmədən və ya sözünüzü kəsmədən dinləyəcək biridir.
- Streslə mübarizə üçün fərdi strategiyalar fikirləşin. Dərindən nəfəs almaq texnikaları və meditasiya kömək edə bilər.
- Müntəzəm məşqlərə başlayın. Yürüyüş etmək, qaçmaq və velosiped sürmək streslə mübarizə aparmağın əla yoludur. Fiziki məşqləri davam etdirmək stresi aradan qaldırmaqla yanaşı, işlərinizdə də sizə kömək edəcək. Münaqişə zonasındasınızsa və sərbəst hərəkət edə bilmirsinizsə, pres və jim kimi döşəmə üzərində hərəkətlər faydalı olacaqdır.
- Sizi stresli hadisələr haqqında düşünməkdən yayındıra biləcək fəaliyyətlər tapın. Bir musiqi aləti çalın, yeni əyləncələr kəşf edin, diqqətinizi çəkən mövzularda oxuyun.
- Alkoqol və tütün istifadəsini nəzarətdə saxlayın və narkotik istifadə etməkdən çəkinin.



[1] Bax: Ris, G. 2013. Travma faktoru. Fauler-Vatt, K., & Allan, S. (red.) Jurnalistika: Yeni çətinliklər. Jurnalistika və Kommunikasiya Araşdırmaları Mərkəzi, Bornmut Universiteti

[2] Hayt, J. & Smit, F. 2013. Faciələr və jurnalistlər: daha səmərəli işıqlandırma üçün bələdçi vəsait. http://dartcenter.org/files/en_tnj_0.pdf

- Kifayət qədər yatmağa çalışın.
- Sağlam qidalar yeyin.
- Çətin günlər keçirdiyinizi sevdiklərinizlə paylaşın. Bütün dəhşətli hekayələri danışmağınıza ehtiyac yoxdur, daha çox hisslərinizi bölüşməyə üstünlük verin.
- Gün ərzində sakit oturub düşünə biləcəyiniz məqamlar tapın. Musiqi dinləyə və ya gündəlik yaza bilərsiniz.
- Sizə nəyin stimul verdiyini düşünmək üçün vaxt ayırın. Bu yolu niyə seçdiyimizi və kimə xidmət etməyə çalışdığımızı düşünmək bizi ruhlandıra bilər. Zorakılıq və vəhşiliklərlə bağlı materiallar hazırlayarkən meydana çıxan qaranlıq məqamlarda çətin mərhələləri aşmaq üçün bu fikirlər bizə lazım olan gücü verə bilər.

Təcrübələrini həmkarları ilə hər gün paylaşmaq öz bölgələrindəki müharibə və münaqişələri işıqlandıran jurnalistlər üçün çox faydalı ola bilər. Bu görüşlərin formal olması mütləq deyil, ancaq elə bir mühit yaradılmalıdır ki, insanlar mühakimə edilmədən sərbəst danışa bilsinlər, dinlənildiklərini və hörmət edildiklərini anlasınlar. Başqalarının bizim kimi eyni çətinliklərlə üzləşdiyini bilmək travmanı dəf etməyə kömək edə bilər.

| **Altıncı hissəyə dair qeydlər:** |
| --- |
| |
| |
| |
| |

# Müəlliflər haqqında



**Piter Dü Toi** iyirmi ildən çoxdur ki, münaqişə jurnalistikası təlimləri ilə məşğul olan Cənubi Afrikalı jurnalist və media təlimçisidir. Cənubi Afrikanın keçid dövrünü jurnalist kimi işıqlandırması və münaqişələrlə elmi cəhətdən məşğul olması – münaqişənin transformasiyası və sülhün qurulmasında jurnalistlərin konstruktiv töhfə verə bilmək potensialını görməsinə və nəticədə, bu sahədə işə başlamasına təkan verdi. Piter o vaxtdan bəri münaqişələrin təsirinə məruz qalmış iyirmidən çox ölkədə, əsasən Afrikada, Mərkəzi və Cənub-Şərqi Asiyada münaqişələrin işıqlandırılması üzrə təlimlər keçib. Piter Rods Universitetinin Jurnalistika və media tədqiqatları məktəbinin elmi işçisidir. O, “ali təhsil ixtisası” (Rods Universiteti) və münaqişələrin idarə edilməsi və transformasiyası (Nelson Mandela Universiteti) üzrə magistr təhsili alıb.

Foto: Con Offord



**Seymur Kazımov** münaqişə araşdırmaları və ekstremal şəraitdə jurnalistika üzrə ixtisaslaşıb. Eyni zamanda medianın problemləri üzrə tədqiqatçıdır. 2002-ci ildən jurnalist fəaliyyəti ilə məşğuldur.

Ermənistan-Azərbaycan müharibəsini işıqlandırıb və uzun illər bu münaqişədən əziyyət çəkən insanlar barədə yerli və beynəlxalq mediada məqalələrlə çıxış edib. Medianın bu istiqaməti ilə 2008-ci ildən məşğuldur, ilk təcrübəsi Gürcüstan-Rusiya müharibəsi olub. Bundan əlavə, bir sıra beynəlxalq hərbi əməliyyat və nümayişlərdən materiallar hazırlayıb.

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində bakalavr, Gürcüstan İctimai İşlər İnstitutunun Qafqaz Jurnalistika və Media İdarəçiliyi Məktəbində magistr təhsili alıb.

Foto: Fərqanə Novruzova

Kompüter dizayneri ***Səbinə Məmmədova***
Üz qapağı dizayneri ***Firuzə İbrahimova***
Korrektoru ***Günel Məmmədova***

Çapa imzalanmışdır 20.08.2021. Kağız formatı 60x84 $^1/_8$.
Sifariş 139. Tiraj 1000.

“Təhsil Nəşriyyat-Poliqrafiya”
müəssisəsinin mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 149
Tel.: (994 12) 567 81 28/29
e-mail: tahsil_az@yahoo.com
tahsilpublishinghouse